# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

19 yanvar 2023-ci il

№ 049 (3617)
Qiymәti 50 qәpik

**Gün-Xəbər**



## Prezident Davosda litvalı həmkarı ilə görüşdü

Davos Ümumdünya İqtisadi Forumunda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən səfər çərçivəsində tədbirdə iştirak edən əcnəbi ölkələrin dövlət və hökümət başçıları, o cümlədən iri şirkətlərin rəhbər şəxsləriylə silsilə görüşlər keçirib. Bele görüşlərdən biri də Litva Prezidenti Gitanas Nauseda ilə olub.

Görüş zamanı Litva prezidenti İ.Əliyevi ölkəsinə səfərə dəvət edib. Səfər dəvətini məmnunluqla qəbul edən dövlət başçısı Litva prezidentinin Azərbaycana səfərinin ikitərəfli əlaqələrimizin inkişafı baxımından əhəmiyyətini vurğulayıb.



## Son on ildə 1 300-dən çox jurnalist öldürülüb

**”Son on ildə dünyada 1 300-dən çox jurnalist peşə borcunu yerinə yetirən zaman öldürülüb”.**

Bunu BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türk Davosda Ümumdünya İqtisadi Forumundakı çıxışında bildirib. Onun sözlərinə görə, jurnalistlərin təhlükəsizliyi xüsusi problemdir: ***“Fikrimcə, son on ildə 1300-dən çox jurnalist xüsusilə ürəkağrıdan vəziyyətlərə, insan hüquqlarının pozulmasına diqqət yetirməyimizi təmin etmək, təhlükəsizlikləri təmin olunmadığı üçün öldürülüb”.***

# Bakının erməni icmasına ilkin şərtləri

Qarabağdakı erməni separatçı-terrorçu dəstənin başçısı Araik Arutyunyan Azərbaycanın Laçın yolu ilə bağlı ilkin tələblərini açıqlayıb. Qeyd olunur ki, Arutyunyan məsələ ilə bağlı Xankəndidə separatçı ətrafı ilə qapalı görüşündə Azərbaycanın Laçın yolunun açılması ilə bağlı bir neçə tələb irəli sürdüyünü deyib. Bunlardan biri Ruben Vardanyanın Qarabağdan çıxarılması olub: ***“Digərləri Ağdarədəki “Qızılbulaq” mədəninin fəaliyyətinin dayandırılması, Laçın yolunun Rusiya sərhəd-keçid məntəqəsində rentgen skaner cihazları quraşdırılması və yüklərə nəzarət edənlər arasında Azərbaycan nümayəndəsinin olmasıdır”.*** Araikin sözlərinə görə, Azərbaycanın növbəti tələbi isə separatçılara məxsus ağır hərbi texnikanın geri çəkilməsidir. O, bildirib ki, Azərbaycan separatçılarla heç bir danışıq aparmır, bu tələblər vasitəçilik yolu ilə onlara təqdim olunub. Nəşrin yazdığına görə, güman edilir ki, vasitəçilər Ermənistan səlahiyyətliləridir. Arutyunyan çıxışı zamanı tələblərin qəbul edilmədiyini də vurğulayıb. ***“Çünki onlar yerinə yetirildikdən sonra yolun açılacağına və ya açılandan 1-2 həftə sonra yenidən bağlanmayacağına zəmanət yoxdur. Buna cavab olaraq Azərbaycan dünən qazın verilişini bir neçə saatlıq dayandırıb. Ümumiyyətlə, çətin günlər qarşıdadır”,*** - deyə o, qeyd edib.






## Jurnalistlər «Azərbaycan Nəşriyyatı»nda icarə haqqı artımına etiraz edir



**Rəhbərlik problemin həllinə söz verdi**

Səh.5

## Türkiyənin Ermənistan siyasətində yeni addımlar



**Türkiyənin Paşinyana dəstək verməsi milli maraqlarımıza uyğundur**

Səh. 6

## Bizi işbazlara yem edən...



**Hökumət ağaya məktub**

Səh. 9

19 yanvar 2023-cü il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru




# Rusiya kimlərin gözündən düşüb?

### Beynəlxalq sorğunun nəticələri

Ukraynaya hücum beynəlxalq ictimai rəydə Rusiyanın nüfuzunu sarsıtmaqdadır.

Novator.az-ın məlumatına görə, mərkəzi ofisi ABŞ-da yerləşən, sonuncu Rusiya-Ukrayna müharibəsi başlanandan bəri dünyada bu ölkələrə münasibətdə ictimai rəyi öyrənən “Morning Consult” analitik şirkəti son hesabatını açıqlayıb.

Hesabatda deyilir ki, hazırda Böyük Britaniya əhalisinin 79 faizi Rusiyaya mənfi münasibət bəsləyir. Yaponiyada bu göstərici 75 faizdir.

İtaliya və İspaniyada keçirilən sorğular zamanı respondentlərin 69 faizi, Almaniya və Fransada isə 68 faizi Rusiya haqda mənfi fikirdə olduğunu bildirib.

ABŞ-da əhalinin 62 faizinin Rusiyaya mənfi münasibət bəslədiyi aydınlaşıb.

“Morning Consult” şirkətinin hesabatını təhlil edən ABŞ-ın “Politico” qəzeti yazır ki, Rusiyanın nüfuzu ləkələnsə də, xalqların heç də hamısı Ukraynaya yekdilliklə dəstək vermir: “Çin, Malayziya və Səudiyyə Ərəbistanı kimi ölkələrdə keçirilən sorğular Ukraynaya mənfi münasibətin qüvvədə qaldığını göstərir.

Ukrayna prezidenti Vladimir Zelenskini xüsusilə narahat etməli olan başqa məqam da var. Avropa İttifaqının üzvü olan Fransa və Almaniya kimi ölkələrdə ictimai rəy heç də bütünlüklə Ukraynanın tərəfində deyil. Halbuki bu ölkələrin hökumətləri Rusiyaya qarşı sanksiyaların tətbiqində, Ukraynaya hərbi yardım göstərilməsində mühüm rol oynayır.

Düzdür, Fransa və Almaniyada keçirilən sorğular Rusiyaya münasibətin daha mənfi olduğundan xəbər verir. Ancaq hər halda Ukraynaya da mənfi münasibət var. Fransa və Almaniyada rəyi soruşulan yetkin yaşlı insanların 4 faizi Ukraynana mənfi münasibət bəslədiyini söyləyib”.

Rusiyaya simpatiyaya gəlincə, “Politico” yazır ki, bu hal böyük dövlətlərdən Braziliya və Meksikada qeydə alınıb. Bu ölkələrdə respondentlərin 5 faizi Rusiya haqda müsbət fikirdə olduğunu açıqlayıb.

***Politico.eu***

# Türkiyənin timsalında yeni aktoru taclandırmağa hazırlaşırlar

“Qərb Türkiyənin timsalında Cənubi Qafqazda yeni söz sahibi aktoru taclandırmağa hazırlaşır”.

Bunu Ermənistan parlamentinin keçmiş vitse-spikeri Ara Saakyan deyib.

Vitse-spikerin Avropa Birliyinin Ermənistana iki müddətinə yeni müşahidə missiyası göndərmək niyyətində olması barədə yayılan məlumata münasibəti belə olub: *“Tarixən Qafqaz “rus ayısının qarnı”, yəni ən zəif qorunan yer sayılır. İndi Avropa Birliyinin müşahidəçiləri burada (Ermənistan-Azərbaycan sərhədində) toplaşırlar, şübhəsiz ki, xüsusi xidmət əməkdaşları olacaqlar. Onların üzərinə informasiya toplamaq və emal etmək, ictimai rəyə təsir etmək, Avropanın müdaxiləsi üçün müsbət gözləntilər yaratmaq və Rusiya ilə Ermənistan arasındakı mövcud və əsaslı narazılığı dərinləşdirmək, Qərbə keçidi təmin etmək, müttəfiqlik əlaqələrimizi kəsmək missiyası qoyulacaq.*



*Amma heç bir qərb ölkəsi bizim bölgəmizə böyük qonşumuz Türkiyə qədər yaxın deyil. Türkiyənin timsalında bölgədə yeni qərarverici və aktoru taclandırmağa hazırlaşırlar”.*

Saakyan Qərbin Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmağa çalışdığını iddia edib. Onun sözlərinə görə, güclənən Qərb-Rusiya qarşıdurması bölgədə təlatümə yol açacaq: *“Böyük təlatümlər olacaq. Heç bir köklü dəyişiklik sarsıntılar olmadan baş vermir və bu dəyişiklik bir gündə və ya bir ayda baş verməyəcək. Qeyri-insani nəticələri olan bir keçid dövrü olacaq”.*

Saakyan rusların yenidən güclü formada Cənubi Qafqaza qayıtmaq istəyəcəklərini iddia edib. Onun fikrincə, belə bir cəhd bölgədə qarışıqlığa səbəb olacaq. Bununla belə, Cənubi Qafqazın keçid dövründə olduğunu və prosesin çətin də olsa, tamamlanacağını deyib.

Qarabağ məsələsinə gəldikdə, Saakyan artıq Ermənistan rəhbərliyinin bu məsələni öz gündəliyindən çıxardığını söyləyib.

# B.Britaniyalı tədqiqatçı: "Günahkar Ermənistandır"

Böyük britaniyalı tədqiqatçı Taras Kuzio Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Laçın yolundakı durumla bağlı iddialarına cavab verib.

“Report”un xəbərinə görə, T.Kuzio tviterdə yazıb ki, yaranmış vəziyyətə görə Ermənistan və Rusiya sülhməramlıları məsuliyyət daşıyır.



Tədqiqatçı bildirib ki, Ermənistan 2020-ci ilin noyabrın imzalanmış üçtərəfli razılaşmanın tələblərini yerinə yetirmir: “Ermənistan hökuməti silahlı birləşmələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmaqla bağlı öhdəlik götürüb. Həmçinin atəşkəs sazişinin həyata keçirilməsində maraqlı olmayan Rusiya “sülhməramlıları” da Ararat Mirzoyanın yalanlarına şərait yaradır”.

Qeyd edək ki, A.Mirzoyan ATƏT-in Daimi Şurasının yanvarın 17-də keçirilən iclasında iddia edib ki, guya Laçın yolu bağlıdır və bu da qondarma respublikada humanitar böhrana səbəb olub.

Xatırladaq ki, T.Kuzio yanvarın 14-də Azərbaycana səfər edib, azərbaycanlı ekofəalların Xankəndi-Laçın yolunda aksiya keçirdikləri əraziyə baş çəkib.

Qeyd edək ki, ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolundakı etiraz aksiyası 38 gündür davam edir.

Belə ki, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.



# Hökümət yaşam şərtlərini gizlədir

Bizdə hər il yaşayış minimumunun dəyəri parlamentdə təsdiqlənir. Amma burda vacib olan bir detal var ki, hökumətin yaşayış minimunun dəyərini ümumi göstərici kimi təsdiqləməklə yanaşı ərzaq, qeyri-ərzaq və xidmətlər səbətinin dəyərini də ayrıca müəyyən etməsi lazımdır.

Məsələn, 2023-cü il üçün təqdiqlənən 246 manatlıq yaşayış minimunun neçə %-ni ərzaq təşkil edir? Bunun açıqlanmaması yaxşı niyyətdən xəbər vermir, yarana biləcək çoxlu suallardan qaçmağa imkan verir. Məsələn, ötən il ərzaq inflyasiyası hətta rəsmi rəqəmlərə görə 20%-i ötdü. İndi nədən bilmək olar ki, ərzaq səbətinin dəyəri bu rəqəmə uyğun indeksasiya olunub?

Yaşayış minimumunun dəyərini həm ayrıca götürülmüş fərd, həm də ailə timsalında da təsdiqləmək lazımdır. Çünki ailədə fərdlər artdıqca, dəyər də dəyişir.

Türkiyənin rəqəmlərindən baxanda, bizdə yaşayış minimunun dəyərinin obyektiv reallığı əks etdirmədiyi görünür. Hazırda Türkiyədə 4 nəfərlik standart ailə (2 nəfər əmək qabiliyyətli, 2 nəfər uşaq) üçün minimum ərzaq səbətinin aylıq dəyəri 720 manat, yaşayış minimunun ümumi dəyəri isə 2400 manatdır. Bizdə eyni tərkibdə 4 nəfərlik ailə üçün yaşayış minimumu 935 manat, Statkomun qidanın istehlakdakı 52%-lik payını nəzərə alsaq, minimum ərzaq səbətinin dəyəri təxminən 500 manatdır.

Razıyam ki, Türkiyədə kommunal xidmətlərin və nəqliyyatın dəyəri bizdən xeyli yüksəkdir və xidmət səbətinin dəyəri bizdən orta hesabla 2-3 dəfə baha ola bilər.

Amma manat ifadəsində götürsək, ərzaq və geyim bizdən o qədər də fərqlənmir.

Bu baxımdan 1 ailənin yayaşış minimunun dəyəri arasında az qala 3 dəfəlik fərq real deyil, səbəb bizdəki doğru olmayan hsesablamadan qaynaqlanır.

Hər halda media üçün yaxşı araşdırma mövzusudur. Türkiyədə və bizdə ən zəruri qida, geyim və xidmətlərdən ibarət standart bir səbət düzəldib qiymət araşdırması ilə müqayisə aparmaq olar.

***Rövşən Ağayev***

# Foto-fakt

**Ölmədik, əsarət qapılarını**
**Hələ qanımızla çox döyəcəyik,**
**Hələ qarşıdadır Şəhid ömrümüz.**
**Qərənfil altında qalan yollarda**
**Şəhid düşəcəyik, ölməyəcəyik!**

*Arif Abdullazadə*

























## Azərbaycanda illik inflyasiya açıqlanıb

2022-ci ildə Azərbaycanda istehlak qiymətləri indeksi 2021-ci ilə nisbətən 113,9 %, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 119,5 %, qeyri-ərzaq məhsulları üzrə 108,6 %, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,4 % təşkil edib.

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Məlumata görə, ötən ay isə istehlak qiymətləri indeksi əvvəlki ayla müqayisədə 101 %, əvvəlki ilin dekabr ayına nisbətən 114,4 % olub.

2022-ci ilin dekabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,7 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 119,0 faiz təşkil etmişdir.

Ötən ilin dekabr ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma manna yarmasının, düyünün, makaron məmulatlarının, peçenyenin, toyuq ətinin, təzə və dondurulmuş balığın, südün, pendirin, kəsmiyin, yumurtanın, qarğıdalı yağının, bananın, almanın, armudun, narın, qozun, fındığın, xiyarın, pomidorun, balqabağın, kartofun, soğanın, sarımsağın, yerkökünün, çuğundurun, şəkərin, konfetlərin, çayın, limonadın, meyvə şirəsinin, pivənin, ucuzlaşma isə əsasən portağalın, naringinin, limonun, xurmanın, kivinin, kələmin qiymətlərində müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir. 2022-ci ilin dekabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,5 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 111,9 faiz təşkil etmişdir. Dekabr ayında əvvəlki ayla müqayisədə qeyri-ərzaq məhsullarından daha çox bahalaşma mebellərin, xalçaların, paltaryuyan maşınların, televizorların, minik avtomobilləri üçün ehtiyat hissələrinin, sintetik yuyusu vasitələrin, sabunların, şampunların, ucuzlaşma isə əsasən kəsilmiş taxtaların, kondisionerlərin və kompüterlərin qiymətlərində müşahidə olunmuşdur. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir. 2022-ci ilin dekabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,4 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 110,2 faiz təşkil etmişdir. Dekabr ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən daha çox bahalaşma mənzillərin icarə haqlarında, paltarların, ayaqqabıların, minik avtomobillərinin təmiri, ictimai iaşə, bərbərxana, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin və ölkədən kənara istirahət turlarının qiymətlərində müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

# Kimlərin maaşları artacaq, kimlərinki artmayacaq?

**Prezident İlham Əliyevin imzaladığı sərəncam ilə minimum əmək haqqı 345 manata çatdırılıb. Minimum əmək haqqındakı artım sadəcə aşağı maaş alanların deyil, eləcə də vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək. Belə ki, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da bir ay müddətində bu Sərəncama uyğunlaşdırılacaq və artırılacaq.**

Sərəncamı şərh edən, iqtisadçı, deputat Vüqar Bayramov bildirib ki, sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan dövlət qulluqçusu statusu olmayan işçilərin də əmək haqqları artacaq.



### Əmək haqqı artımları neçə faiz olacaq?

Suala cavabında iqtisadçı vurğulayıb ki, bu sahələrdə çalışan və dövlət qulluqçusu statusu olmayan vətəndaşlarımızın əmək haqqları Vahid Tarif Cədvəli (VTC) əsasında dövlət büdcəsindən maliyyələşdirilir. Onun sözlərinə görə, Vahid Tarif Cədvəlində maaşlar 19 dərəcə üzrə müəyyənləşdirilir.

*"Hazırda ilk 4 dərəcə üzrə əmək haqqlar 345 manatdan azdır və onlar 300-338 manat arasında dəyişir. Ən yüksək dərəcə üzrə əmək haqqı isə 979 manatdır. Minimum əmək haqqının artırılması paraktik olaraq bütün dərəcələr üzrə artımlara səbəb olacaq. Bu zaman əmək haqqının minimum səviyyədən az və çox olması xüsusi önəm daşımır. Konkret artım faizləri bu il fevralın 5-dək müəyyən ediləcək"*, - o qeyd edib.



### Müəllim və həkimlərin maaşları artacaqmı?

V.Bayramov bildirib ki, hazırda Səhiyyə Nazirliyinin tabeçiliyindəki müəssisələr VTC ilə tənzimləndiyi üçün onların əmək haqqlarında artımlar olacaq: *"Amma Elm və Təhsil Nazirliyinin və TƏBİB-in ayrıca əmək haqqı sxemi var. Bununla belə, hər iki sektorda aşağı maaşlarda artımlar həyata keçiriləcəyindən dərəcələr arası fərq nəzərə alınmaqla əmək haqqlar müəyyənləşdiyi üçün bu sahələrdə də maaş artımları gözlənilir. Bu isə o deməkdir ki, fevralın 5-dək həmin qurumların da yeni əmək haqqı cədvəllərini təsdiq üçün təqdim edəcəkləri gözləniləndir. VTC üzrə yeni maaş məbləğləri Nazirlər Kabineti tərəfindən təsdiq olunacaq"* (bir qədər əvvəl təsdiq olunub- red.).

**Rasim**

# Məcburi köçkünlər üçün tikilmiş evlər satılır

## Bir adam bir neçə mənzili bron edə bilər



**Keçmiş məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli binalardakı istifadəsiz qalan mənzillərin satışı ilə bağlı detallar məlum olub.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin nümayəndəsi Adil Əkbərov bildirib ki, mənzillərin ödənişi nağd şəkildə olacaq: *"Evlərin satışı ilə bağlı məhdudiyyət yoxdur. Hər kəs müraciət edib, ala bilər. Proses yanvarın 23-də saat 10:00-da başlayacaq. Beş qəsəbədə, beş layihə, 101 bina və 1662 mənzildən ibarət bir satış nəzərdə tutulur. Proses "ms.sosial.gov.az" elektron portalı vasitəsilə həyata keçiriləcək. Hər kompleks və binalar barədə məlumatlar orada yerləşdirilib. Ödəniş nağd olacaq, amma vətəndaşlar mənzilləri ipoteka ilə də əldə edə bilərlər".*

O qeyd edib ki, bir adam bir neçə mənzili bron edə və ala bilər: *"Sistem evi kimin birinci bron etdiyini müəyyənləşdirir və şəxsi kabinetinə bildiriş gəlir. 10 gün ərzində mənzili almadıqda, onu ikinci bron edən şəxs ala bilər".*

Xatırladaq ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb. Bu fərman mənzilə ehtiyacı olan vətəndaşlarda ev almağa böyük ümid yaradıb.

# Əbu-Dabidən Davosa qədər...




**Ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqeyini gücləndirməyi, eyni zamanda dünyaya alternativ ixrac imkanları bəxş etməsi, geopolitik mərkəz halına gəlməyi bu gün Azərbaycanın qlobal siyasi güc olaraq nüfuzunun hər gün daha çox artmağına səbəb olur.**

İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumu dünyanın siyasi və iqtisadi mənzərəsinə mühüm töhfələr verir. Azərbaycan hər il bu nüfuzlu Forumda dövlət başçısı səviyyəsində təmsil olunur. Özəlliklə, cənab Prezidentin BƏƏ-yə tarixi səfəri fonunda ölkəmizin bərpaolunan enerji sahəsində potensialına verilən qiymət, TDT, Qoşulmama Hərəkatı nəzdində Azərbaycanın önəmli güc olmağı Davosda bütün diqqətləri ölkəmizə yönəldəcək.

Davos Forumunda dünyanın aparıcı ölkələrinin liderləri, ən tanınmış şirkətlərinin və kooperasiyalarının təmsilçiləri iştirak edirlər. Onlar qlobal iqtisadi proseslər və maliyyə, enerji, ətraf mühit, makroiqtisadiyyatla bağlı iqtisadi təhlillər aparırlar. Gələcəyin iqtisadi mənzərəsinin, qlobal siyasi nizamının formalaşdırılmasında Davos Forumunun müstəsna əhəmiyyəti mövcuddur.

Davos Forumunda on il ərzində uğurla iştirak edən nüfuzlu şəxslərə fəxri mükafat verilir. Azərbaycan Prezidenti bu mükafatı alanlar arasındadır. Qərbin enerji təhlükəsizliyində Azərbaycanın oynadığı rolun daha da artması ölkəmizin potensialı baxımından vacib əhəmiyyətə malikdir. Azərbaycan heç kimdən maliyyə yardımı almadan işğaldan azad edilən torpaqlarda həyatı bərpa edir. Davos Forumu Qarabağa gələcəkdə yeni investisiyaların cəlbinə mühüm təsirlər göstərəcək.

1971-ci ildən ənənəvi olaraq İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu qlobal ekoloji problemlərin aradan qaldırılmağında da vacib qərarların verildiyi mərkəzlərdən biri halına gəlir. Forumlar üçün seçilən mövzular aktuallığı ilə diqqət çəkir. Məruzələrdə dünyanın 100-dən çox dövləti iki əsas göstərici əsasında –potensial inkişaf və rəqabətə davamlılıq indeksi üzrə qiymətləndirilir.

Qlobal geosiyasət, maliyyə sistemində texnoloji və potensial struktur dəyişiklikləri imkanları, kapital bazarlarının inkişafı, elektron ticarət, rəqəmsal iqtisadiyyat, qloballaşmanın strateji nəticələri və digər mühüm məsələlər də müzakirə olunur. Xüsusilə qeyd etmək lazımdır ki, Davos İqtisadi Forumunun əhəmiyyəti daha çox Forumun iştirakçılarının və orada müzakirə olunan dünyəvi problemlərin dairəsinin tərkibi ilə bağlıdır. Belə ki, Forumda dünya iqtisadiyyatının mövcud problemlərinin və onların optimal həlli yollarının müzakirəsi aparılır. Mütəxəssislərin sözlərinə görə, son 30 ildə Davos Forumu qlobal problemlərin işıqlandırılması və çağırışların edilməsi baxımından ən uğurlu platforma rolunu oynamaqdadır. ABŞ, Rusiya, Çin, Braziliya, Hindistan və dünyanın digər böyük dövlətlərinin liderlərinin də mütəmadi olaraq iştirak etmələri forumun geosiyasi və geoiqtisadi çəkisini daha da artırır.

25 il ərzində Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında əməkdaşlıq əlaqələri uğurla inkişaf edib. Əlaqələrin belə yüksək hala gəlməyi Prezident İlham Əliyevin uğurlu siyasət kursu nəticəsində baş verib. Davos iştirakçılarına yaxşı bəllidir ki, ümumi kapital qoyuluşu 40 milyard ABŞ dolları olan Cənub Qaz Dəhlizi layihəsinə daxil olan “Şahdəniz-2”, Cənubi Qafqaz Boru Kəməri, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri layihələri müxtəlif maraqlı tərəfləri – o cümlədən 7 dövləti və 11 şirkəti özündə birləşdirir. Bütün bu layihələrin reallaşdırılması, əlbəttə ki, Avrasiyanın müxtəlif ölkələri arasında regional əməkdaşlığa, geniş işbirliyinə yol açır.

Azərbaycanın siyasi gücünü iqtisadi imkanları ilə birləşdirməyi dövlətimizin dünyada ön sıralarda qərar tutmağı ilə nəticələnir.

**Tural İsmayılov**
Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətində sektor müdiri

# JURNALİSTLƏR "AZƏRBAYCAN NƏŞRİYYATI"NDA İCARƏ HAQQI ARTIMINA ETİRAZ EDİRLƏR

## Rəhbərlik problemin həllinə söz verdi




**Dünən «Azərbaycan Nəşriyyatı»nda uzun illərdir fəaliyyət göstərən redaksiyaların çoxsaylı jurnalistləri və rəhbər şəxsləri icarə haqlarının heç bir səbəb olmadan süni qaldırılmasına etiraz əlaməti olaraq tədbir keçirdilər. Tədbir nəşriyyatın qarşısında baş tutdu. Hadisə yerinə Yasamal rayon Polis İdarəsinin 3 PPX avtomobilində olan polis əməkdaşları, eləcə də ərazi polis bölməsinin əməkdaşları gəlmişdilər. Lakin polis əməkdaşlarının jurnalistlərlə fərdi söhbətindən sonra onlar da məlumatlandırıldılar ki, tədbir siyasi aksiya yox, icarə haqqının qaldırılmasına etiraz tədbiridir.**

Çoxsaylı qəzet, sayt və internet TV-lərin də əməkdaşlarının iştirak etdiyi tədbirdə çıxış edənlər keçmiş rəhbərlikdən (Ağabəy Əsgərov) miras qalmış təmirsiz, biabırçı otaqlara görə qiymətlərin təxminən 60 faiz qaldırılmasının yolverilməz olduğunu bildirdilər və bu məsələnin tezliklə həll olunacağına ümid etdilər.

”Təzadlar”ın baş redaktoru Asif Mərzili LAFTV və ToplumTV əməkdaşlarının sorğusuna cavab müsahibəsində bunları dedi: ” Mən təxminən 45 ildir ”Azərbaycan” nəşriyyatında çalışıram. Əvvəllər çoxtirajlı ”Böyük kimya uğrunda” (Azərbaycan və rus dillərində), qəzetinin baş redaktoru işləmişəm, daha sonra ”Respublika” və ”Azərbaycan” qəzetlərində xüsusi müxbir, ardınca ”Ədalət” qəzetində baş redaktorun 1-ci müavini, 1993-cü ildən isə ”Təzadlar” qəzetinin (həmçinin tezadlar.az saytının və tezadlarTV-nin) təsisçisi və baş redaktoru kimi fəaliyyət göstərirəm. İndiyədək ”Azərbaycan” nəşriyyatına təxmini hesablamalarıma görə, 200 min manatdan çox icarə haqqı ödəmişəm. Bu o deməkdir ki, «Azərbaycan Nəşriyyatı»nın saxlanmasında bizim də payımız var. Mən Dünya Türk Jurnalistlər Birliyinin üzvü və Azərbaycandakı təmsilçisiyəm, birliyin ilkhavadis.com, eləcə də anadoluyakasihaber.com saytlarının köşə yazarıyam, trtajans-ın Azərbaycan təmsilçisiyəm. Yəni, bir Azərbaycan vətəndaşı və jurnalist olaraq Azərbaycan həqiqətlərini dünyaya təmənnasız, vicdanımın hökmü ilə yayıram. Belə çıxır ki, indi dövlətinə, millətinə və xalqına təmənnasız xidmət edən süni icarə haqqı artımı ilə imtahana çəkilir. Ulu Öndər Heydər Əliyev dəfələrlə qəzetlərin «Azərbaycan» nəşriyyatına olan boclarını sildi, digər güzəştlər tətbiq etdi ki, mediamız inkişaf etsin. Prezident İlham Əliyev jurnalistlərə hər cür kömək edir, dəstək verir, hər dəfə də «Mən jurnalistlərin dostuyam!» deyir. Belə çıxır ki, bəzi məmurlar Prezidentin dostları ilə düşmənçilik etmək istəyir. «Azərbaycan Nəşriyyatı» Prezidentin sabiq köməkçisi Əli Həsənovun sayəsində indiki nimdaş görkəmə salındı, bir dəfə də olsun bu nəşriyyata ayaq basmadı. Amma jurnalistlərin adına KİVDF yaradıb bəhrələndi. Bu gün nəşriyyatın 8-ci mərtəbəsinin yarısı istisna olmaqla, qalan mərtəbələri mal ferması günündədir, dəhlizlərdəki Sovetdənqalma parketlər ayağa ilişir, otaqlarda istilik sistemi yox, sanuzeldən danışmağa dəyməz Liftlərə girəndə tanınmış seyyidlərə nəzir deyirik ki, kanatları qırılmasın. Əli Həsənov nəşriyyatın əsas istehsalat sahələrini ala-ala bir bu binaya girişə bilmədi. İndi on illərdir bu vəziyyətdə çalışan jurnalistləri birdən-birə süni icarə haqqı artımı ilə sınağa çəkmək yolverilməzdir. İstəyimiz budur ki, aidiyyəti dövlət qurumları bu məsələdə jurnalistlərə dəstək olsunlar. Ölkədə pensiya artımı 10-15 faiz qaldırılır, dövlət nəşriyyatında isə qiyməti 60 faiz qaldırırlar ”.

Qeyd edək ki, tədbirdən sonra «Azərbaycan Nəşriyyatı»nın direktor müavini Anar müəllim bir qrup jurnalistləri qəbul etdi. O, söz verdi ki, qaldırılan problemləri nəşriyyatın direktoru Leyla Güləliyevaya çatdıracaq, Prezident Administrasiyasına məruzə ediləcək. Söz verdi ki, problemdə ortaq məxrəc tapılacaq.

Onu da deyim ki, icarə haqlarının süni qaldırılmasına etiraz edən çoxsaylı jurnalistlərin Prezident İlham Əliyevə müraciəti hazırlanıb, imzalanma ərəfəsindədir.

***Elçin Məmmədli***



## Erməni deputat: "Rusiya ordusu getsə, İrəvanın Ankara ilə münasibətləri yaxşılaşacaq"

**"Rusiyanın Ermənistandakı hərbi mövcudluğu əbədi olmayacaq, ordunun getməsindən sonra İrəvanla Ankara arasında münasibətlər yaxşılaşacaq".**

Bunu Ermənistanın hakim "Mülki müqavilə" fraksiyasından deputat Qurgen Arsenyan erməni mətbuatına müsahibəsində bildirib.

Deputatın fikrincə, mövcudluq məsələsi hansısa anda təhlükəsizliyin təminatı kimi əhəmiyyət daşımayacaq, sadəcə, bu, zaman məsələsidir.

Arsenyan əlavə edib ki, Ermənistan daha da inkişaf etmək üçün qonşu dövlətlərlə münasibətləri tənzimləməyə, mehriban qonşuluq münasibətləri üçün platforma yaratmağa çalışır. Deputatın sözlərinə görə, 1990-cı illərdə Ermənistan hökuməti Rusiya hərbçilərini Türkiyədən gözlənilən ekzistensial təhlükə qarşısında ölkə üçün "xilasedici halqa" hesab edirdi. Lakin Ermənistanın müstəqilliyi tanındıqdan sonra Türkiyə onu heç vaxt təhdid etməyib.

Arsenyan qeyd edib ki, Rusiya hərbçilərinin Ermənistanda, Türkiyə sərhədində mövcudluğunun əsas məqsədi Ermənistanı qorumaq funksiyası deyil və ilk növbədə Türkiyə üçün təhlükədir.

*"Rusiya ordusu olmasa, Ermənistan Türkiyə üçün heç bir təhlükə yaratmayan qonşuya çevriləcək"*, - deyə o vurğulayıb və əlavə edib ki, bununla "Rusiya paradiqması"nın təzahürü dayanacaq.

# TÜRKİYƏNİN ERMƏNİSTAN SİYASƏTİNDƏ YENİ ADDIMLAR

- Azərbaycan Qarabağı zalımdan və zülmdən azad edərkən Türkiyə birmənalı, çoxyönlü, böyük, tarixi, əsla unutmayacağımız yardım göstərdi, iki dövlətin münasibətləri STRATEJİ QARDAŞLIQ səviyyəsinə yüksəldi, yeni mərhələ başladı;

- Azərbaycan və Gürcüstanla ciddi siyasi, iqtisadi, hərbi, mədəni əlaqələri olan Türkiyə savaşdan sonrakı dönəmdə Ermənistanla da münasibətləri normallaşdırmaq, bu yolla Güney Qafqazda imkanlarını artırmaq yolunu seçdi;

- Ermənistana dedi ki, Türkiyə Brüssel formatını dəstəkləyir, Azərbaycanla birbaşa danışıqlar yolunu seç, Azərbaycanın ərazi bütövlüyünü, Qarabağ-Xankəndi üzərindəki suveren hüquqları tanı, sərhədlər müəyyən olunsun, Zəngəzur yolu açılsın, Türkiyə ilə Ermənistanın qarşılıqlı faydaya əsaslanan əlaqələri qurulsun, nəticədə, bölgəyə barış, hüzur, inkişaf gəlsin;

- Türkiyənin Ermənistanda ona qarşı illər boyu formalaşdırılmış rəydən xəbəri var, Paşinyan hökumətinin vəziyyətini bilir, onu çətin duruma sal-

göstəricidir, ancaq daha ciddi addımlara ehtiyac var, bunun üçün Azərbaycanla münasibətlərin qurulması işi sürətləndirilməlidir;

- Qeyd edim ki, Brüssel danışıqları davam edəndə Türkiyə ilə Ermənistan arasında yaxınlaşma güclənir, Rusiya Qarabağ məsələsinin tək hakimi olanda isə zəifləyir;

- Rusiya Brüssel danışıqlarını pozdu, erməni xalqını Paşinyana qarşı mübarizəyə çağırdı, onu erməni xalqının mənafelərinə xəyanətdə ittiham etdi, Paşinyan cavab addımları atdı, Qarabağ məsələsinin nizamlanması ilə bağlı Rusiya planını qəbul etdiyini bildirdi, KTMT-nin yekun sə-

daşıyacaq, seçilməsə, siyasi zəlzələ olacaq, münasibətlər yenidən biçimlənəcək;

- Nisbətən tərəfsiz anket şirkətləri deyirlər ki, son dönəmlərdə Körfəz sərmayəsinin Türkiyəyə gəlişi ilə Ərdoğanın səsləri bir az artsa da, onun seçilmək imkanı az, seçilməmək ehtimalı daha çoxdur;

- Ərdoğanın hər səsə ehtiyacı var, o bütün imkanları toplamaq üçün ölkədəki hər kəsimə müraciət edir, Ələvilərlə bağlı önəmli addımlar atır, kürdlərin mühafizəkar partiyası Hüdapar ilə görüşür, romanları toplayır, təriqətləri, camaatları təşviq edir, mühafizəkarlara yeni mesajlar verir, xəzi-



lı vəziyyətə salması onun mənafelərinə zərər verir, belə ki, Azərbaycan Rusiyanın Güney Qafqazdan çıxmasında maraqlı görünmür, Rusiya Güney Qafqazdan getməsə, bölgədə zəifləməsə, Türkiyənin Güney Qafqazda imkanlarını artırması mümkün deyil;

- Paşinyan hökuməti Rusiyanın Güney Qafqazda mövqeyinin zəifləməsi üçün çalışırsa, bu, Türkiyənin mənafeyinə uyğundur, o halda, Türkiyə Paşinyanın mövqeyini niyə gücləndirməsin ki? Türkiyənin Paşinyana dəstək verməsi Azərbaycanın milli maraqları ilə də üst-üstə düşür;

- Türkiyənin Güney Qafqaz məsələsində Azərbaycandan asılı vəziyyətə düşməsi ona hərəkət imkanı vermir, nəticədə, Ermənistanda Rusiyanın və İranın mövqeyi güclənir;

- Türkiyə bilir ki, Zəngəzur yolunun açılması Ermənistanla yaxınlaşmaq nəticəsində mümkün olacaq, elə buna görə də Azərbaycanı və Ermənistanı Brüssel formatına, birbaşa danışıqlara təşviq edir;

- Türkiyə Rusiyanın zəiflədiyini görür, Güney Qafqazda Rusiyadan boşalacaq yeri tut-

maq istəmir, elə buna görə də addım-addım irəliləmək yolunu seçdi, ikiyönlü danışıqların başlaması, əlaqələrin qurulması üçün Ermənistana saxta soyqırımı iddialarından, Türkiyəyə ərazi tələblərindən əl çək demədi, rəsmi bəyanat vermədi - təbii ki, şərtlərini bağlı qapılar arxasında açıqladı, erməni xalqını qıcıqlandırmaq, Paşinyana qarşı yönəltmək istəmədi - Türkiyə Paşinyan hökumətinin mənafeyinə uyğun olduğunu düşünür;

- Avropa ilə əlaqə qurmağa, Rusiyanın təsir məkanından uzaqlaşmağa çalışan Paşinyan dəqiq bilir ki, hökumətinin davamlılığı, Ermənistanın gələcəyi Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılmasına bağlıdır - Rusiyanın müqavimətini bu yolla azalda bilər. Elə buna görə də Türkiyə ilə əlaqələrin qurulması üçün addımlar atdı;

- Təmsilçilər müəyyənləşdirildi, görüşlər başladı, telefon diplomatiyası tətbiq olundu, çox ciddi nəticələr olmasa da, Türkiyə ilə Ermənistan arasında hava yolu açıldı, Ərdoğan Avropada Paşinyanla görüşdü, dedi ki, iki dövlət arasında psixoloji divarlar yavaş-yavaş yıxılır, bu, müsbət

nədini imzalamadı, nazirini Moskvaya göndərmədi, Rusiya hərbi bazaları Ermənistana təhdiddir dedi, fərqli yollarla Xankəndindəki mitinqə qarşı çıxdı, Avropaya dedi ki, Azərbaycan Rusiya ilə birgə hərəkət edir, o, Azərbaycanın yanlış addımlarından istifadə edərək diplomatik üstünlük qazandı...;

- Bu məqamda - Ermənistanın Rusiya ilə münasibətlərinin gərginləşdiyi anda Türkiyə Ermənistana doğru iki addım da atdı, yükdaşıyan təyyarələrin uçuşuna icazə verməyən yasaqları qaldırdı, Ağrı dağında jandarma üçün baza qurdu;

Türkiyənin bu yeni addımlarının səbəblərini sıralayaq:

- Türkiyə çox önəmli seçimə hazırlaşır, yaxın aylarda Prezident və Parlament seçkisi olacaq. Bu seçkilərə 2023-cü ildə dünyanın ən önəmli seçkisi deyə bilərik, ABŞ-ın, Avropanın, Rusiyanın, Ukraynanın, Orta Şərqin, qonşu dövlətlərin diqqəti bu seçimə yönəlmişdir - Azərbaycan üçün bu seçimin xüsusi önəmi var. Ərdoğan yenidən seçilsə, bu, bölgədə, o sıradan Güney Qafqazda tarazlığın qorunması, davamı anlamını

nənin qapısını açıb pul paylayır, ittifaqını genişləndirmək istəyir, xarici siyasətdə İraq, İsrail, Misir, Körfəz ölkələri, Səudiyyə Ərəbistanı ilə münasibətləri normallaşdırır, Bəşər Əsədi yola gətirməyə çalışır, Rusiya ilə Ukrayna arasında barış missiyası yüklənir, Yunanıstanı hədələyir...;

- Ərdoğanın səsini almağa çalışdığı kəsimlərdən biri də ermənilərdir. Ermənilər Türkiyədə ciddi təşkilatlanmış etnik azlıqlar sırasında yer tuturlar, kilsələri, qəzetləri, radioları, iş, sənət adamları, sərvətləri, millət vəkilləri var, ictimai rəyə təsir göstərməyin yollarını bilirlər;

- Türkiyənin bu önəmli mərhələdə yükdaşıyan təyyarələrin uçuşuna izin verməsi həm ölkədəki, həm də Ermənistandakı ermənilərin güvənini artırır, Ağrı dağında jandarma üçün tikilən bazanın terrorla mücadilə və sərhədlərin daha etibarlı qorunması üçün olduğu deyilsə də, gələcəkdə Ermənistanla sınırların açılmasının ilk addımı kimi də qəbul olunur, ermənilər sərhədlərin açılması üçün Ərdoğana dəstək verirlər;

- Türkiyənin Güney Qafqaz siyasətini Azərbaycandan ası-

mağa hazırlaşır;

- Türkiyənin Ermənistana doğru addım atması onun ABŞ və Avropa ilə münasibətlərinin yumşalmasına təsir göstərir, belə ki, ABŞ və Avropa Türkiyəyə israrla deyirlər ki, Ermənistanla sərhədləri aç, bu, Rusiyanın Güney Qafqazdakı mövqeyini zəifldəcək;

- Türkiyənin Ermənistana doğru addımları, isti mesajları davam edəcək, Ərdoğanın İlham Əliyevlə Paşinyanı Ankarada görüşməyə dəvət etməsi də istisna deyil;

- Seçim və milli maraqlar Türkiyənin Ermənistana yaxınlaşmasını, Azərbaycanla Ermənistan arasında münasibətlərin qurulmasını, birbaşa danışıqlara başlamağı tələb edir - Türkiyə bu məsələlərdə israr edəcək;



**Siracəddin Hacı**

# İlin müjdələri optimizm vəd etmir?

## Hökumət "bir güllə ilə iki dövşan vurmağa" çalışır

**Ötən il ölkədə inflyasiya son 7 ilin rekordlarını qırdı. Statistika Komitəsinin ilkin məlumatlarına görə, ölkə üzrə ümumi qiymət artımı 14-15, ərzaq məhsullarında isə 20 faiz ətrafındadır. Lakin ötən ilin sonlarında Nazirlər Kabinetinin (NK) iclasında baş nazir Əli Əsədov bəyan etmişdi ki, ölkədə ərzaq inflyasiyası 60 faizə çatıb. Əslində bu rəqəmlər də reallıqda olduğundan yaribayarı kiçildilmiş görünür. Bütün bunları nəzərə aldıqda təxmin etmək olar ki, ölkədə orta illik inflyasiya 2022-ci ildə 40 faizdən çox olub. Elə isə gəlin görək, yeni ilin hökumətdən aldığı ilk müjdələr nə qədər adekvatdır.**

Belə ki, yeni ildə dövlət başçısının məlum sərəncamı ilə minimum əmək haqqı 300 manatdan 345 manata (Ermənistanda bu göstərici bizim pulla bu il 340 manata catdirılıb), minimum əmək pensiyası isə 280 manata qaldırıldı. Bununla yanaşı, sosial müdafiəyə ehtiyacı olan digər həssas qurpların məvacibi orta hesabla 15 faiz artırılıb. Lakin müharibə veteranlarına ödənilən 80 manatlıq müavinətin artırılmasi qeyri-müəyyən müddətə təxirə salınıb. Əslində isə hökumət bir qərarla bütün ödəmələrini inflyasiya səviyyəsi qədər artırmalı idi.

İlk olaraq minimum əməkhaqqından başlayaq. NK-nın bu məsələ ilə bağlı mətbuat konfransında bildirildi ki, minimum əməkhaqqının artirilmasından 700 min işçi yararlanacaq. Bunun 450 mini dövlət müəssisələrində calışır. Bu o deməkdir ki, ölkədə 700 min əmək müqaviləsi ilə calısan işçi hələ də 345 manatdan az əməkhaqqı alırmış. Halbu ki, ölkəsə orta aylıq əmək haqqı 828 manat, medyan əmək haqqı (rəsmən məşğul əhalinin az əməkhaqqı alan yarısının orta ayliq əməkhaqqı) isə 410 manat təşkil edir. Yəni ölkədə 700 min işçinin əmək haqqı medyan əmək haqqından da az olub. Üstəgəl.ölkədə bir il ərzində real inflyasiyanın 40 faiz olması o deməkdir ki, bu az əməkhaqqı real dəyərini 40 faiz itirib. Deməli, real gəlirlərin 40 faiz itirilməsi qarşılıginda hökumət minimum əmək haqqını 15 faiz artırmaqla 700 min işçinin əməkhaqqinda 1-15 faiz arası artım edib. Çunki o 700 min işçi arasında 300 manat maaş alan da, 344 manat əməkhaqqı alan da var. Heç olmasa, minimum əmək haqqı rəsmi inflyasiya (20 faiz) səviyyəsində belə artırılmadı. Halbuki, Azərbaycanın qoşulduğu Avropa Konvensiyasına görə, ölkədə minimum əməkhaqqı orta aylıq əməkhaqqının 60 faizindən çox olmalıdır. Bu isə 496,8 manat təşkil edir.

Digər tərəfdən, 2023-cü il üçün qanunla yaşayış minimumu ölkə üzrə 246 manat, əmək qabiliyyətli əhali üçün 261 manat, pensiyaçılar üçün 199 manat, uşaqlar üçün isə 220 manat məbləğində müəyyən edilib. Tutaq ki, ailədə cəmi üç nəfər var - ər, arvad və körpə uşaq. Baxmayaraq ki, ölkədə orta statistik ailə üzvlərinin sayı dörd nəfərdir. İki valideyin və iki uşaq. Üç nəfər ailə üzvünün belə toplum yaşayış minimunun məbləği 742 manat təşkil edir (261+261+220=742). İşləyən təkcə ərdirsə və minimum əməkhaqqı məbləğində, yəni 345 maaş alırsa, bu məbləğ ailənin yaşayış minimumu səviyyəsindən 2,15 dəfə azdır.

O ki qaldı əmək pensiyasının minimum məbləğinin 240 manatdan 280 manata qaldırılmasına, bu minimum ehtiyac meyarının 246 manata qaldırılması fonunda gözlənilən idi. Bu artımdan təxminən 90 minə yaxın əmək pensiyaçısı bəhrələnəcəyi bildirilir. Lakin hazırda əmək pensiyaçılarının əksəriyyəti 284-285 manat (268+16.66=284.66) məvacib alır. Həmin məbləğ isə 280 manatdan yüksək olduğuna görə göstərilən miqdarda məvacib alan pensiyaçılara bu artimi təsiri olmayacaq.

Məsələnin bir tərəfi də ondan ibarətdir ki, minimum əmək pensiyası da qanuna görə həri il indeksləşdirilməlidir. 240 manatı 15 faiz indeksləşdirsək, yekun məbləğ 276 manat (240+36=276) təşkil edəcək. Hökumətin bu məbləğə əlavə edəcəyi vəsait hər pensiyaçı üçün cəmi 4 manat təşkil edir. Sərəncamda minimum pensiyanın artılılması tarixi də məqsədyönlü şəkildə göstərilməyib. Əgər sərəncamda göstərilsəydi ki, minimum pensiyaların məbləği 1 yanvar 2023-cü ildən 280 manata qaldırılsın, o zaman fevral ayının əvvəlində aparılcaq indeksləşdirmə sərəncamı 280 manatlıq minimum əmək pensiyalarına da şamil edilməli idi. O zaman minimum əmək pensiyasının yekun məbləği 322 manata (280+42=322) qalxardı. Yeni hökumət necə deyərlər, bir güllə ilə iki dovşan vurub - minimum əmək pensiyaları 280 manata qaldırmaqla onu indeksləşdirmədən məhrum edib. Əslində isə minimum əmək pensiyası da hər il indeksləşdirilməlidir. Hökumət bu prosesi hər il təkrarlayaraq, minimum əmək pensiyasını indeksləşdirməkdən yayınır. Bu da dövlət səviyyəsində qanun pozuntusudur.



Digər tərəfdən, pensiyanın minimum məbləğinin artması pensiyasya yaşına çatan əməkçilərin əmək pensiyası əldə etmek imkanlarını məhdudlaşdırır. Belə ki, minimum əmək pensiyası 240 manata olanda işçinin pensiya yaşi tamam olduqda, əmək pensiyası hüququ qazanmaq üçün ona minimum 34 560 manat (240x144=34560) sığorta kapitalı lazım idisə, minimum əmək pensiyası 280 manata qalxdıqdan sonra tələb olunan minimum sığorta kapitalının məbləği 40 320 manata (280x144=40320) qalxıb. Sığorta kapitalının bu qədər artırılması səbəbindən on minlərlə pensiya yaşi çatan əməkçi əmək pensiyası deyil, yaşa görə müavinət alacaq. Hazırda yaşa görə müavinət 180 manat idi. Bu günlərdə yaşa görə müavinət də 17 faizə yaxın artırılaraq 220 manata catdırılıb. Yəni minimum əmək pensiyası ilə yaşa görə müavinət arasında olan əvvəlki 60 manatlıq fərq saxlanılıb. Bu minvalla hökumət əmək pensiyasının minimum məbləğini artırmaqla büdcə vəsaitlərinə qənaət də edə bilər.

Sərəncamda pensiyaların indeksləşdirilməsi barədə NK-ya tapşırıq verilib. Amma bu həm də qanunla tənzimlənir. 01 iyul 2017-ci ildə qəbul edilən "Əmək pensiyası haqqında" qanuna əsasən əmək pensiyaları hər il orta aylıq əmək haqqının artım tempinə uyğun olaraq indeksləşdirilir. Statistika Komitəsinin məlumatına əsasən ötən il orta aylıq əmək haqqı 14-15 faizə artıb. Bu isə onu deməyə əsas verir ki, əmək.pensiyaları da elə 14-15 faiz artırılacaq.

Sərəncamı şərh edərkən NK-nın mətbuat konfransında bəyan edildi ki, pensiya kapitalı istehlak qiymətlərinə, yəni ümumi inflyasiyaya uyğun olaraq indeksləşdiriləcək. Lakin bu o demək deyil ki, hazırda əməkçikərin ödədiyi sığorta kapitalı inflyasiya səviyyəsinə uyğun olaraq indeksləşdiriləcək. Əslində ölkədə heç bir əməkçinin pensiya kapitalı mövcud deyil. Hökumət "pensiya kapitalı" ilə "sığorta kapitalı"nı qarısdıraraq anlaşılmazlıq yaradır və bu anlaşılmazlıqdan sui-istifadə edir. Necə deyərlər, "çoxbilmiş" məmurlarımız və bəzi deputatlarınız "bulanlıq suda balıq tutmağa" çalışır. Əslində əməkçilərin adına ödənilən 25 faizlik (22%+3%) DSMF ödənişi sığorta kapitalını formalaşdırır və bu məbləğ hökumət tərəfindən indeksləşdirilmir. Pensiya kapitalı isə işçinin öz arzusu ilə, 25 faizlik DSMF ödənişindən əlavə vəsait ödəməklə, əməkçi özünə pensiya kapitalı formalaşdira bilər. Bunu isə heç kim haqlı olaraq etmir, çunki səmərəsiz xərc hesab edilir.



Akif Nəsirli

19 yanvar 2023-ci il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru





# İnternet əsrində telefonsuz qalanlar...

Ölkə sakinlərinin sosial problemləri kifayət qədərdir. Bu sırada növbəti problem Gədəbəy rayonunda yaşanır. Belə ki, rayonun Kəsəmən kənd sakinləri internet əsrində rabitə problemindən əziyyət çəkirlər.

Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov kənd sakinlərinin üzləşdiyi çətinlikdən bəhs edib: ***“Biz məcburiyyət qarşısında qaldığımız üçün sizə müraciət etmək qərarına gəldik.***

***Biz Gədəbəy rayonun Kəsəmən kəndində yaşayırıq. Kənddə vaxtilə stasionar telefon xətti olub və istifadə də etmişik. Hal-hazırda çox acınacaqlı vəziyyətdə qalmışıq. Biz kənd sakinləri bilmirik ki nə edək. Çünki kənddə rabitə ümumiyyətlə, yoxdur və üstəlik heç bir mobil operator şəbəkəsindən də istifadə etmək mümkün deyil. Çünki mobil rabitə tamamilə yoxdur. Yəni bizim kənddə nə Baksel, nə Azərsel, nə də ki Nar mobil operatorları işləmir. Evlərimizdən 300 metr aralı olan, Ağbaşlar adlanan körpü var. Həmin körpüyə dönən yol çox sərt və təhlükəli döngə olduğu üçün həmişə avto qəzalar baş verir. Qəza baş verən zaman xəstələr kənd camaatının köməyi ilə xəstəxanalara çatdırılır, çünki təcili tibbi yardıma zəng etmək mümkün deyil. Bununla əlaqədar olaraq 25 ildən çoxdur ki, telefon xətti çəkdirmək üçün Gədəbəy rayonunda yerləşən ATS-ə və müvafiq nazirliyə müraciət etmişik. Müraciət də nazirlik tərəfindən ATS-ə göndərilir. ATS-in rəhbərliyi isə həmin vaxtdan müxtəlif bəhanələrlə bizi yola verib, hər dəfə ATS-ə gedəndə gələn il telefon xətti çəkiləcək, narahat olmayın, deməklə kifayətlənirlər. ATS-in rəhbərliyinin bizə cavabı belə olub ki, onsuz da hara şikayət etsəniz,ərizəni mənə göndərəcəklər.***

***Biz sakinlər başa düşmürük ki,biz kimdən şikayət ediriksə,həmin ərizəni də ona göndərirlər.Belə olan halda, əlbəttə, şikayətimiz nəticəsiz qalacaq.***

***Cənab Prezident ölkədə elektron sahənin, internetin və rabitənin inkişafına xüsusi diqqət yetirir, dövlət və özəl sahədə elektron xidmətlərdən istifadənin genişləndirilməsi üçün mütəmadi fərman və sərəncamlar verir, dövlət büdcəsindən bu sahənin inkişafına kifayət qədər maliyyə ayrılmasını təmin edir. Lakin bu fərman və sərəncamlara Gədəbəy rayonunun məsul şəxsləri riayət etmirlər. 21-ci əsrdə, Azərbaycanın ən ucqar dağ rayonlarında yüksək sürətli internetin olduğu bir zamanda Gədəbəy rayonun Kəsəmən kəndi rayona yaxın olsa da telefon, internet xətti və mobil operator yoxdur.***

***Cənab Prezidentin həyata keçirdiyi siyasətə və gördüyü işlərə öz əməlləri ilə kölgə salan özünü əvəzedilməz səlahiyyət sahibi hesab edən ATS-in rəhbəri və onun kimi şəxslərin yarıtmaz fəaliyyətidir.Dəfələrlə müraciət etdiyimizə baxmayaraq müraciətlərimiz nəticəsiz qalır. Kənddə mobil telefonlardan istifadə etmək olmur.Telefonla danışmaq üçün kəndin kənarına çıxmaq lazımdır. Sizdən xahiş edirəm, həmin kəndə telefon və internet xəttinin çəkilməməsi səbəbini, günahkarların araşdırılıb üzə çıxarılması və kənddə telefon xəttinin çəkilməsi və mobil operator stansiyasının yerləşdirilməsi üçün müvafiq orqanlar qarşısında məsələ qaldırasınız. Eləcə də bu müraciəti KİV-lərə verəsiniz ki, cəmiyyət görsün ki, rabitə sahəsində verilən hesabatlar hec də obyektiv deyil.***

**İmza:**

*1.Namazova Kifayət İsrayıl mob 055 467 85 25*
*2.Bayramov Hüseyn Mehdi mob 055 483 89 99*
*3.Namazov Əli Firudin mob 070 289 29 21*
*4.Namazov Kəmaləddin Bəkir mob 050 477 37 11*
*5 Namazova İmmi Qasım 98 yaş*
*6.Namazova Elman Sahib mob 050 455 25 77*
*7.Bəkrli Kənan Kəmaləddin mob 070 727 05 02*
*8.Namazov Sahib Quba mob 050 345 76 20*
*9.Əsgərova Rahilə İbrahim mob 050 523 99 78*
*10.Namazov Elşən Bəxtiyar mob 070 730 62 72*
*11.Bayramov Mahir Hüseyn mob 077 719 37 00*
*12.Hacıyeva Kəmalə Adışirin mob 055 483 89 89”.*

**Nigar**

# Aldığı verdiyindən çox olur

Yazılarımın qəhrəmanını yenidən tanıtmağıma ehtiyac yoxdur. E-Mail ünvanıma gələn məktubların sayından bilirəm ki, Gülnisə xalanı kifayət qədər tanıyanlar var. Hətta qonşularımız hərdən zarafatyana ona simsiz teleqraf da deyirlər, heç xətrinə də dəymir. Mən isə ona həm müasir, həm keçmiş köhnə fikirləri özündə cəmləşdirən, hər şeyi yerində və zamanında söyləməyi bacaran insan kimi yanaşıram. Hərdən həmdərdim, hərdən həmsöhbətim, həmfikirim olur.

Dünən yenə qarşılaşdıq, oturub xeyli söhbətləşdik. Baxmayın aramızdakı yaş fərqinin belə çox olmağına, çox vaxt dünyada və ölkədə baş verənlərin xəbərini ilk ondan eşidirəm. Bu dəfə də söhbətə maraqlı xəbərlə başladı. Deyir amerikalı milyarder, tviterin rəhbəri İlon Mask yazıb ki, “İnstagram” sosial şəbəkəsində şəkillərə baxmaq insanları depressiyaya salır. Yəni “İnstagram” insanların həyatını olduğundan daha yaxşı göstərir ki, bu da kasıb təbəqənin hisslərilə oynamaqdır. “Twitter” isə oxucularını qəzəbləndirir. Mask da həmçinin “Twitter”də yazılanları oxuyanda gülürəm. Sonra da müqayisə üçün sual verib ki, “İnstagram” insanları depressiyaya salır, “Twitter” isə onları qəzəbləndirir. Hansı daha yaxşıdır?



Gülnisə deyir mənə qalsa heç biri yaxşı deyil. Odur, Səudiyyə Ərəbistanında bir hüquq professoru da bu sosial şəbəkələrin qurbanı oldu. Bu da axşama qədər Hakkın adından moizələr oxuyan islam ölkəsinin çıxardığı axmaq qərarları... Əstağfürullah Allahdan xəbərləri yoxdur. Bir vaxtlar bu professoru həbs etmişdilər. Dünən eşidirəm ki, indi də ”Twitter” və ”WhatsApp”dan istifadə etdiyi üçün ölüm cəzasına məhkum edilib.

Doğrusu Gülnisə xala Aida əl-Qarnidən danışmasaydı dünyada belə bir islahatçı hüquq professorunun varlığından xəbərim olmayacaqdı.

İndi oğlu həmin cinayət işinin təfərrüatını media ilə bölüşüb. Deyir hakimiyyət alimi öz adı ilə (@awadalqarni) ”Twitter” hesabından fikirini bildirmək üçün istifadə etdiyinə görə ittiham edib. Professor ”WhatsApp”dan və ”Telegram”dan istifadə etdiyi üçün də ittiham olunub.

Maraqlısı budur ki, Səudiyyə hökuməti və dövlət tərəfindən idarə olunan investorlar son vaxtlar ABŞ sosial mediasında, o cümlədən ”Twitter” və ”Disney” kimi şirkətlərdə paylarını artırıblar.Vallah bunları müqayisə etdikcə adam bu ədalətsiz dünyada heç yaşamaq istəmir qızım.

Gül kimi dünyamız varıydı, bu sosial şəbəkələr bizə verdiyindən çox alır, bunun harası yaxşıdı axı?

Bəli, əziz oxucularım, artıq günümüzü müasir texnologiyalarsız təsəvvür etmək mümkün deyil. Vaxt ötdükcə inkişafda olan texnologiya yenilikləri həyatımıza elə daxil olur ki, bir də onda ayılırıq ki, ya işimizi asanlaşdırıb, ya da kiminsə həyatını Aida əl-Qarni kimi sonlandırıb. Bax, beləcə təzadlı məqamları ilə bildiyini işlədir. Amma bu asanlaşdırma məsələsi özü də təzadlıdır. Çünki bu müasir texnologiyaların Gülnisə xala demişkən birbaşa, yaxud dolayısılə zərəri xeyirindən çox olur bəzən. Düzdü, internetin, telefonun köməyilə istədiyimiz məlumatı anında alırıq. Harada yaşamağımızdan asılı olmayaraq bu qurğuların köməyi ilə istənilən məlumatı əldə edə bilərik. Digər ölkələrin ictimai-siyasi, iqtisadi, sosial, mədəni həyatını, gündəmini izləyirik. Yaxud uzaqda yaşayan doğmalarımızla, dostlarımızla virtual görüşürük. Bir sözlə, yeniliklərdən anında xəbərdar oluruq. Uzaqda yaşayan əzizlərimizlə belə əlaqə rahat görünsə də, bir addımlığımızda yaşayanlarla bağımızı kəsir, yadlaşırıq. Çox vaxt özümüzün də iştirakçısına çevrildiyimiz bir məqamı deməsəm olmaz. Bəzən aylarla görmədiyimiz qohum-əqraba, dost-tanışlarınla bir araya gəldiyimiz zaman söhbət etmək yerinə hər kəs öz telefonu ilə məşğul olur. Dərd burasındadır ki, bunu təkcə gənc yaxud yeniyetmə yaşlarında olanlar eləmir, tanıdığım 70 yaşlılar var ki, süfrə qırağında da telefonu rahat buraxmır, bir əlində qaşıq, digər əlində telefon gününü başa vurur. Bax, bizi bizdən uzaqlaşdıran belə hallardır. Uşaqdan böyüyə bunu hamımız bilsək də, vəziyyətə bir qədər soyuqqanlı, etinasız yanaşırıq.

Sağlamlığımıza da zərərlidir. Mediaya açıqlama verən həkim - nervopatoloq Qalib Əsədov bu faktı təsdiqləyərək bildirir ki, internet asılılığı göz yorğunluğu, bel ağrısı, baş ağrıları, stress, ürək ağrıları yaradır. Aludəçisinə çevrildiyimiz “Facebook” isə depressiyaya yol açır. Bundan əlavə internet asılılığı olan yeniyetmələr və azyaşlı uşaqlar həm də uzun müddət kompüter və telefonla baş-başa qaldıqlarından başqaları ilə ünsiyyət qurmaqdan çəkinir, bir çox hallarda isə aqressiya nümayiş etdirirlər. İnternet asılılığından əziyyət çəkən məktəblilər isə dərslərin öyrənilməsində çətinlik çəkirlər. Ümumiyyətlə, beyinləri internet informasiyaları ilə yüklənən uşaqlar belə hesab edirlər ki, onlar məktəbdə öyrədilənlərdən daha çox şey bilirlər və oxumaq onlar üçün maraqlı deyil.

Bəli, həkimin də dediyi kimi, müasir qurğuların xeyiri ilə yanaşı, yaratdığı problemlərdən biri də cəmiyyətdə tez-tez müzakirə olunan mütaliə problemi –kitab oxumaqdan uzaqlaşmağımızdır. Çoxlarımız üçün nəşr olunan kitablar getdikcə tarixə qovuşur. Hər kəs istədiyi vəsaiti müasir elektron kitabxanalardan endirib oxuyur. Bu ilk baxışdan rahat görünür. Lakin kağızın qoxusunu hiss edərək oxumağın yeri bir başqadır. Məni köhnə fikirli adam kimi görsəniz də bu gerçəkdir.

**Əsas demək istədiyim budur ki, elm və texnikanın inkişaf etməsi hər birimiz üçün yaxşı haldır, amma qaydasında istifadə etməyəndə balans pozulur, passivləşirik, tənbəlləşirik. O ki, onlardan dünyamızı gözəlləşdirmək, özümüzü inkişaf etdirmək üçün istifadə etməliyik, sağlamlığımıza, gümrahlığımıza xidmət edən vasitəyə çevirməliyik, evimizi yıxmağa deyil.**



*Şahnaz Salehqızı*

# Qazmaçı 3 manata nə yeyə bilər?!

**Sualın ünvanı SOCAR!**




Hazırda il yeni başlayıb, hökumətin təbliğat maşını dövlət tərəfindən aparılan ödənişlərin müəyyən həcmdə artırılmasını cəmiyyətə islahat adı ilə sırımaqla məşğuldur. Belə bir dövrdə oxucuların diqqətini SOCAR tərəfindən qazmaçı fəhləyə ayrılan bir günlük yemək puluna çəkmək istərdik. Ölkə iqtisadiyyatının bütün yükünü çiyinlərində daşıyan neft sənayesinin Gavhınları (dəzgahın pəncəsi-A.N) olan qazmaçıları SOCAR əslində hər gün keyfiyyətli isti və yüksək kalorili yeməklə təmin etməlidir. Lakin bunun əvəzində şirkət hər gün qazmaçıya 3 manat verir ki, bu "isti və yüksək kalorili" yeməyi qazmaçı özü təmin eləsin.

Neftçilər deyir ki, 2010-cu ildən bu günə qədər yemək pulu 3 manat təşkil edir, 23 ildir ki, bu məbləğ bir qəpik də artırılmır. 2010-cu ildə ətin kiloqramı 6-7 manata, çörək isə 30 qəpiyə stılırdı. İndi ətin bir kiloqramı 14-17 manata, ən ucuz çörək isə 75 qəpiyə təklif edildiyi bir vaxtda, özünüz düşünün, yemək pulu nə qədər olmalıdır?

Sutka ərzində 12 saat sərasər buruq yanında olan işçi 3 manata yavan çörək yeməlidirmi? Bəlkə heç olmasa yanına kolbasa da əlavə edəsiniz?!

Hazırda 3 manta ortabab bir dönər düşür, dönərxana isə mədən ərazisində yoxdur. Bəlkə mədən ərazisində dönərxana açıb, qazmaçılra ayrılan həmin 3 manatı da o dönərxanaya köçürdəsiniz?!

Lakin SOCAR-ın 2021-ci il üzrə İllik Hesabatdan oxuyuruq:

- SOCAR-ın Baş ofisinin yerləşdiyi inzibati binada çalışan 700 nəfərə yaxın işçi gündəlik keyfiyyətli və yüksək kalorili isti yeməklə təmin olunmuş, isti yeməklə təmin olunmayan sahələrdə çalışan (o cümlədən qazmaçılar -red. A.N) işçilərin gündəlik yemək xərci Nazirlər Kabinetinin müvafiq qərarına və SOCAR-ın əmr-qərarına uyğun olaraq ödənilmişdir.

Hesabatda qeyd olunan «SOCAR əmr-qərarına əsasən» quruda çalışan işçilərə verilən gündəlik yemək pulu (yəni şirkətin qeyd etdiyi kimi isti yeməklə təmin olunmayan işçilər üçün) 3 (üç ) manat təşkil edir. Budurmu haqq-ədalət - Bakının göbəyində, rahat ofisdə oturub, qazmaçıların qazandığı pulu sayanlar hər gün dəyəri 30-40 manat təşkil edən, yüksək kalorili və isti yeməklə təmin edilir, qazmaçılara isə 3 manat verilir ki, get buna nə ala bilirsənsə, onu da ye...

***Akif Nəsirli***

# Simonyan iki ölkəni üz-üzə qoydu

**Rusiyaya xəbərdarlıq edildi**



**"Rusiya "Vaqner" hərbi şirkətinin Serbiyada hərbçi toplamaq cəhdlərini dayandırmalıdır".**

Bunu Serbiya Prezidenti Aleksandar Vuçiç deyib. Onun sözlərinə görə, serblərin Ukraynada döyüşə çağırılması ədalətli deyil: ***"Serbiya Avropada Rusiyaya qarşı sanksiyalar tətbiq etməyən yeganə ölkədir. Rusiya "Vaqner"in Serbiyadan hərbçi toplamaq cəhdlərini dayandırmalıdır. Belə yanaşma həm də Serbiya qanunlarına ziddir".***

Bundan əvvəl ***"Russia Today"*** dövlət televiziya kanalının saytı serb dilində ***"Vaqner"***in Ukraynada döyüşçülər axtarması barədə elan dərc edib. Bundan sonra Serbiyaya səfər edən ABŞ dövlət katibinin müşaviri Derek Çollet ***"Vaqner"***in fəaliyyətindən narahat olduqlarını bildirib. Sözügedən rus hərbi şirkəti keçən ay Serbiyada ***"dostluq və əməkdaşlıq mərkəzi"*** qurduğunu açıqlamışdı.

Qeyd edək ki, ***"Russia Today"***ın baş redaktoru Marqarita Simonyandır.

# Bizi işbazlara yem edən...

## Hökumət ağaya məktub

Məmləkətimiz dünyanın diqqətində olan ölkələr sırasındadır. Burası həm də müxtəlif idman yarışları üzrə dünya və Avropa çempionatlarının keçirildiyi bir arenadır. Demək olar ki, hər il canım məmləkətimdə dünya miqyaslı sivilizasiyalararası mövzularda tədbirlər keçirilir. Və bu tədbirlərə çox sayda xarici vətəndaşlar qatılır. Qonaq qismində gələnlər burda olduqları müddət ərzində adət-ənənələrimizlə maraqlanırlar. Özlərinə dönəndə burda gördüklərini, eşitdiklərini ən azı sosial mediada paylaşırlar. Biz də həmçinin.

Son on ildə ölkəmizdə keçirilən beynəlxalq tədbirlərdə iştirak edən əcnəbilərin sayı yüz mini keçib. Bu insanlar arasında jurnalistlər də var. Onlar ölkəmizdə mövcud olan bütün sahələrə dair, o cümlədən adət-ənənələrimiz barədə də yazılar dərc edirlər. Xarici mediada yer alan bu yazılarda ölkəmizin inkişafında nəzərə çarpan müsbət halları qeyd etməklə bərabər, cəmiyyətimizdə, məişətimizdə, adət-ənənələrimizdə hələ də hökm sürən vaxtı keçmiş, müasir dövrün tələblərinə uyğun gəlməyən hallara da diqqət yetirirlər.



Məsələn, Avropa ölkələrinin aparıcı kütləvi informasiya vasitələrində (KİV) Azərbaycana həsr olunan bir neçə yazıya rast gəlmişəm. O yazılarda qonaqpərvərliyimizlə, ölkəmizin inkişafı ilə yanaşı, paytaxtımızın başdan-başa sıralanmış apteklərindən, çoxsaylı klinikalarından, çil-çıraqlı şadlıq saraylarından və hər addımbaşı qadın və kişi küaforlarından da bəhs edilir. Bir də bu kiçik şəhərin böyük əhalisindən, insanların çoxluq təşkil etdiyi təsvir olunub. Həmin yazını oxuyanda çox təəssüfləndim... Və bu fikirləri doğuran səbəblər barədə düşündüm. Bu məsələdə məqaləni yazan xarici jurnalistdən daha çox özümüzün günahkar olduğumuz qənaətinə gəldim. Utandım, öz-özümə dedim yazdıqlarının hansı yalandır ki, hamısı gerçək həqiqət deyilmi?

Məgər Bakı şəhəri məmurların və imkanlı adamların marketlərinin, şadlıq saraylarının, mərasim evlərinin, apteklərinin, restoranlarının və digər «çal oynasın Əjdər əmi»-nin obyektlərinin tıxacında boğulmurmu? Şəhərdə nəfəs almağa hava, içməyə təmiz su, yeməyə qatqısız təbii heç nə tapılmırsa əcnəbi bundan artıq nə yazsın ki?

Dünyanın heç bir paytaxt şəhərində Bakıdakı kimi dözülməz vəziyyət yoxdu.

Paytaxtın bu hala salınmasının əsas günahkarı, səbəbkarı hökumətdi, şəhər rəhbərliyidi. Təkcə onlar deyil, milli adət-ənənələrdən sui-istifadə edib, asan qazanc əldə edən acıgöz məmurlar da var. Toy və yas məclislərinin həddindən çox xərc hesabına başa gəlməsi şadlıq sarayları və mərasim evlərinin sahiblərinin daha çox qazanc əldə etmək iştahı ilə bağlıdı. Başqa səbəb axtarmağımıza gərək yoxdu. Bütün sahələri ağuşuna alan bahaçılıq gənclərin belə, ailə qurub, rahat yaşamaq arzusuna qovuşmağa imkan vermir.

Baş verən bu xoşagəlməzliklərin kökündə məhz milli adət-ənənələrin həddindən çox xərcə başa gəlməsidir.

Toy və yas məclisləri- şadlıq saraylarının, mərasim evlərinin sahiblərinin böyük gəlir mənbəyidir. Amma həmin obyektlərdən əldə edilən böyük gəlirlərdən nə qədər vergi verildiyinə baxanda, oradakı cüzi rəqəmi görən adamın tükləri biz-biz olur. Bu, başqa bir yazının mövzusu olduğuna görə, üstündən keçirəm.

Yəni dünyada hər şeyin dəyişdiyini dərk etməliyik, adət-ənənələri nizama salmaqla, həm xalqa yardım etməliyik, həm də dünyanı özümüzə güldürməyə son qoymalıyıq. Bu xınabazların da klounluqlarına çox uymayın. «İrəvanski hakışdalarını» demirəm hələ. Xülasə güman edirəm ki, adətənənələrimizə yeni, müasir forma və məzmun verməyin zamanı çoxdan çatıb. Ölkənin inkişafı ilə nə qədər çox öyünsək də, xalqın səksən faizinin maddi durumunun ürəkaçan olmadığını da bilirik. Artıq diz üstə çökmüşük, ölkədən çörək arxasınca xaricə getməyə məcbur olanların dərdidə ki, çəkiləsi deyil. Millət deqradasiya həddinə düşüb. Hökumətimiz isə yalnız "uğurlardan", "əldə olunmuş böyük nailiyyətlərdən" dəm vurur, millətin faciəsini görməzdən gəlir. Hələ dözürük.

Dediyim budur ki, adət - ənənələrin sadə xalqın qazancına uyğun keçirilməsi dövlət tərəfindən nizamlanmalıdır. Bu sahədə olan boşluqdan istifadə edən işbazlar, hoqqabazlar, kəndirbazlar bu fağır camaatın olanqalan cüzi imkanlarını da məqamdan istifadə edib, əlindən almasınlar.

Hökumət ağa unutmasın ki, bu sahədə qayda-qanun yaradılmasına məsuldur! Xalqı ölkədə istədiyi kimi meydan sulayan işbazların soymasından xilas etməyin yolunu tapmağa borcludur!

***Şahnaz Salehqızı***

***Dünya Universitetlərin qlobal reytinq cədvəlləri 2003-cü ildən aparılır. Son illər ölkə mətbuatında dünya universitetlərinin reytinq cədvəlləri və milli universitetlərimizin bu reytinqlərdəki mövqeyi haqqında tez-tez müzakirələr gedir. Qeyd edək ki, ölkəmizdə bu mövzuda ilk araşdırma 2008-ci ildə təhsil tədqiqatçısı, dos. İlham Əhmədov tərəfindən aparılmışdır. Daha sonra tədqiqatın nəticəsi olaraq ölkə mətbuatında- "Azərbaycan müəllimi", "İqtisadiyyat" v.s. qəzet və jurnallarda məqalə kimi nəşr olundu. Tədqiqatın nəticəsi 2008-ci ildə Bakıda ADPU və T. C. Hacəttəpə Universitetlərinin təşkilatçılığı ilə keçirilən "Təhsildə Qloballaşma və IKT" adlı Beynəlxalq Elmi-Praktik Konfransda məruzə edilmiş və konfransın materiallarında dərc edilmişdir. (https://silo.tips/download/thsild-qloballama-v-ikt, "Təhsilin qloballaşmasında İKT amili" -səh 13-26. adlı bu məqalə). Təqdim etdiyimiz bu məqalə həmən tədqiqatın xülasəsidir.***

# Təhsildə qlobal rəqabəti artır

*(Əvvəli ötən sayımızda)*

A.İ.Gertsen adına Sankt-Peteburq Dövlət Pedaqoji Universiteti İnnovasiya Təhsil Proqramı çərçivəsində 95 layihə həyata keçirmiş, 10 milyon ABŞ dolları maliyyə vəsaiti sərf etmiş, Plexanov adına İqtisadiyyat akademiyası 2006-2007-ci tədris ilində 296 layihə həyata keçirmiş 40 milyon ABŞ dolları bu layihələrə sərf etmiş v.s. Bu faktlar RF-nın müsabiqənin qalibi olan 57 Universitetinin hər biri üçün konkret rəqəmlərlə göstərilə bilər. Nəzərə alsaq ki, bu ölkədə 1995-2005 illərdə də çoxsaylı Federal Təhsil Proqramları icra edilmişdir (o cümlədən büdcəsi bir milyard dollar olan RF-da "Vahid İnformasiya Təhsil Məkanının Formalaşması" Federal Dövlət Proqramı), universitet təhsilinin inkişafı üçün iri həcmli layihələr hazırlanmış və həyata keçirilmişdir, onda Rusiya Federasiyasında universitet təhsilinin inkişaf dinamikasını təxminən təsəvvür etmək mümkündür.

Bu Universitetlərin əksəriyyəti tədris planlarında olan fənnlər üzrə yüzlərlə elektron dərsliklər yaratmış, virtual təhsil layihələri hazırlamış və yüksək səviyyədə icra etmiş, səmərəli distant təhsil sistemi qurmuşlar ( bu ölkədə universitetlərin çoxu distant yolla təhsil xidməti göstərir, milyondan artıq tələbə distant yolla təhsil alır).

Rusiya universitetlərinin ölkədaxili reytinq cədvəlində ilk 30 universitet siyahısında olmayan hər hansı əyalət universitetinin, məsələn, Omsk Dövlət Universitetində Təhsilin İnformatlaşması sahəsində görülən işlər bizim respublikanın bütün universitetlərinin bu sahədə gördüyü işlərdən daha çoxdur. RF universitetlərinin ölkədaxili reytinq cədvəlində ilk 100 universitet syahısında olmayan Amur vilayəti Blaqoveşinsk Pedaqoji İnstitutunun 10-12 il əvvəl Təhsilin İnformatlaşması sahəsində gördüyü işlər səviyyəsinə biz hələ ki, çatmamışıq.

Qonşu Dağıstan Dövlət Universitetinin saytına girmək və orada yerləşdirilən elektron resursları kəmiyyət və keyfiyyətcə Azərbaycan universitetlərində aparılan analoji işlərlə müqayisə etmək kifayətdir ki, bu istiqamətdə biz öz inkişaf səviyyəmizi real qiymətləndirək. Belə müqayisələri çox aparmaq olar. Maraqlananlar İnternetdə belə təhlilləri davam etdirə bilərlər.

Azərbaycan universitetləri üçün magistr hazırlığı nisbətən yeni sahədir. 2008-ci ildə ADİUndə ***"Boloniya Prosesi kontekstində magistr hazırlığı"*** mövzusunda maraqlı elmi konfrans təşkil edilmişdir. Məruzələrdən məlum oldu ki, xeyli vaxtdır respublikada magistr hazırlığı həyata keçirilir, lakin bu istiqamətdə heç bir elmi-metodik layihə, elmi-tədqiqat işi icra edilməmiş, bu istiqamətdə təhsilə demək olar ki, maliyyə qoyulmamışdır. Yəni bu gün magistratura hazırlığının tədris-metodik təminatı ya hazır deyil, ya da ictimai əsaslarla (yəni pulsuz) hazırlanıb. Bazar iqtisadiyyatı şəraitində cüzi məvacib alan müəllimlərin ictimai əsaslarla icra etdiyi ***"layihə"***nin keyfiyyəti nə ola bilər?

RF-da İnnovativ Təhsil Proqramları çərçivəsində bir çox universitetlər ayrı-ayrılıqda magistr hazırlığına dair bir neçə milyon dollar həcmində layihələr icra ediblər. İndi isə RF universitetlərinin son 10-12 ildəki sürətli inkişafını qlobal səviyyədəki inkişafla müqayisə edək. Yuxarida qeyd etdiyimiz kimi Britaniyanın ***«Tayms»*** qəzetinin ***"Ali təhsil"*** üzrə əlavəsində hər il dünyanın 200 ən güclü universitetinin ənənəvi reytinq cədvəli dərc edilir. 2006-cı ilin reytinq cədvəlində dünyanın 200 qabaqcıl universiteti siyahısında RF universitetlərindən cəmi iki-Moskva Dövlət Universiteti və Sankt-Peterburq universitetləri var idi. 2007-ci ildə keçirilən sorğuların nəticələrinə görə isə dünyanın ən yaxşı 200 universitetini sırasında bir dənə olsun belə RF-na məxsus universitet yoxdur. Şanxay Universitetinin hazırladığı ***"Dünya universitetlərinin akademik reytinq cədvəli"***ndə dünyanın 500 nüfuzlu universiteti siyahısında 2007-ci ilin nəticəsinə görə isə RF-na məxsus cəmi iki universitet var.

Başqa reytinq cədvəlində dünyanın 1500 nüfuzlu universiteti siyahısında RF-na məxsus cəmi on universitet var. Bütün bu faktlar göstərir ki, Rusiya Federasiyasında ali təhsil sisteminin qlobal tələblər səviyyəsinə çatması üçün elmi-metodik, innovativ inkişafa davamlı olaraq hər il külli miqdarda vəsait qoyulsa da (ümumən milyardlarla dollarlarla ölçülə bilən həcmdə), hər il minlərlə iri elmimetodik layihələr həyata keçirilsə də, bu investisiyalar qlobal səviyyədə universitetlərin inkişaf tempi ilə müqayisədə çox azdır. Yəni,



## Buna hazırıqmı?

dünya universitetləri elə bir sürətlə inkişaf edir ki, elm və təhsilin inkişafına elə bir səviyyədə investisiyalar qoyulur ki, ümumiyyətlə təhsil elə kapitaltutumlu səviyyəyə gəlmiş ki, bu gün bir çox məsələlərdə bizim universitetlərdən on dəfələrlə güclü olan Rusiya universitetləri belə qlobal reytinq cədvəllərində özlərinə mövqe tuta bilmirlər.

Bu gün dünya səviyyəli elə universitetlər var ki, onların büdcəsi bir neçə milyard dollardır. Bu müqayisələr Azərbaycan milli universitetlərinin qlobal səviyyədə hansı mövqedə olmasını təxmini də olsa bizə bildirir. Vəziyyəti tədricən yaxşılığa doğru dəyişmək üçün Azərbaycanda milli universitet təhsilinin gələcək 20-25 illik inkişafını əhatə edən təhsil doktrinası, strateji proqramlar hazırlanmalı, bu proqramların icrası istiqamətində 100-lə layihələr hazırlanmalı və beynəlxalq standartlar səviyyəsində maliyyələşməli, icra olunmalıdır. Ümumiyyətlə biz hələ də birbaşa universitet təhsilinin keyfiyyətinin yüksəlməsinə xidmət edən elmi-metodik layihələrin hazırlanması və icrasının normal maliyyələşməsi praktikasına hələ keçə bilməmişik. Hələ də bu tip mühüm layihələrin, elmtutumlu nəzəri və praktik əhəmiyyətli təhsil tədqiqatlarının icrasına ya vəsait ayrılmır, ya da çox cüzi vəsait ayrılır, təbii ki, belə yanaşmanın səmərəsi ola bilməz.

İntellektual, elmtutumlu layihələr beynəlxalq standartlar səviyyəsində həllini tapmalıdır. Bunun üçün isə ilk növbədə layihələr beynəlxalq səviyyədə maliyyələşməlidir. Bu məqsədlə universitetlərin büdcədənkənar fondlarından da cəsarətlə istifadə etmək lazımdır. Bütün bu yönümlü layihələrin icrasını elə universitetlərin özləri də icra etməlidirlər (beynəlxalq praktikada olan kimi). Belə investisiya gələcəkdə universitetə daha çox əlavə maliyyə qazanmasına, beynəlxalq səviyyədə rəqabətədavamlı olmasına imkan verə bilər. ***"Azərbaycan Respublikası ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiya edilməsi tədbirləri"*** haqqında Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyevin imzaladığı fərman və fərmana uyğun olaraq xüsusi Dövlət Proqramının hazırlanması, bu gün Azərbaycan Respublikasında çox uğurla reallaşan ***"Yeniləşən Azərbaycana Yeni Məktəblər"*** ideyasını daha da inkişaf etdirərək, ***"Yeniləşən Azərbaycana Yeni Milli Universitetlər"*** ideyasını gündəmə gətirir, yeni qlobal səviyyəli müasir milli universitetlər yaradılmasını təhsil ictimaiyyəti qarşısında aktual vəzifə olaraq qoyur. Digər tərəfdən hal-hazırda Azərbaycan Respublikasında elmin inkişafı ilə də əlaqədar xüsusi Dövlət Proqramı hazırlanır. Bu proqrama universitetlərdə texnoparkların yaradılması, universitetlərdə elmin, innovativ fəaliyyətin inkişafı üçün müəyyən layihələr sisteminin daxil edilməsi və icrası milli universitetlərin qlobal tələblər səviyyəsinə yüksəlməsinə təkan ola bilər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ADİU-nin yeni korpusunun açılışında söyləmişdir. ***"... dünyada mövcud olan ən müsbət təcrübəni götürək, Azərbaycanda tətbiq edək, mövcud olan vəziyyətə uyğunlaşdıraq. ... Gərək maddi texniki bazanın möhkəmləndirilməsi və tədris prosesinin müasirləşdirilməsi paralel şəkildə aparılsın. .. Ali məktəblərdə təhsil prosesinin inkişafında böyük işlər görülməlidir. Ən qabaqcıl, dünya miqyaslı ali məktəb heç vaxt əldə etiyi nailiyyətlərlə kifayətlənmir. Bu, daim islahat tələb edən sahədir. ...Dünyada elmi- texniki tərəqqinin bütün yeniliklərini bilmək, onları qavramaq, qabaqcıl ali məktəblərlə əlaqə yaratmaq təhsil prosesinin inkşafında mühüm rol oynayacaqdır. Azərbaycan da bu yolu seçibdir".***

Milli universitet i təhsilinin qlobal standartlara cavab verməsi üçün respublikada təhsil büdcəsinin daha da artımına, universitetlərin investisiya obyektinə çevrilməsinə ehtiyac var. Amerika prezidentlərindən biri vaxtı ilə söyləmişdi: ***"Amerika universitetləri zəngindir, ona görə yox ki, Amerika zəngindir. Amerika zəngindir, ona görə ki, Amerika universitetləri zəngindir".*** Biz də müstəqil ölkə olaraq gələcəkdə zəngin bir dövlət qurmaq istəyiriksə, investisiyaları insan kapitalına qoymalı, bu məqsədlə zəngin universitetlər qurmalıyıq, qalan məsələləri isə zaman özü həll edəcək. Belə olarsa, qloballaşmanın sərt tələbləri səviyyəsində, rəqabətədavamlı dövlət kimi inkişaf edə bilərik.



**dos. İlham Əhmədov**

# TALIBOVLAR DÖVRÜNDƏ TÖRƏDİLƏN CİNAYƏTLƏR...

## Baş Prokurorluq dəhşət saçan açıqlamalarla bağlı cinayət işləri açıbmı?

Yanvarın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin keçmiş sədri Vasif Talıbovun istefasından 1 ay ötəcək. Ötən müddətdə bölgədə hadisələr sürətlə biri-brini əvəz edib. Prezidentin təyin etdiyi kadrlar Naxçıvandakı vəziyyəti araşdırır, əhali ilə görüşlər keçirir, problemləri, şikayətləri dinləyir, bölgənin inkişafı ilə bağlı yeni layihələr hazırlayırlar.




Talıbovlarsız keçən günlərin ən səs-küylü xəbərləri isə onların dövründə yerli əhaliyə, xüsusən sahibkarlara qarşı törədilmiş dəhşətli qanunsuzluqlar, cinayətlərlə bağlıdır.

Vaxtilə əmlakları quldurluq, zorakılıq, hətta adam oğurluğu vasitəsi ilə əllərindən alınmış iş adamlarının danışdıqları Azərbaycanın bu bölgəsində misli görünməmiş cinayətlərin baş verdiyinə dair təsəvvür yaradır.

Bu yaxınlarda “”Flaminqo” restoranının sahibi Cəmil Fərəcov, “Badamlı” mineral sular zavodunun sahibi Elşad Məmmədov mətbuata əmlaklarının quldurluq yolu ilə əllərindən alınmasının təfərrüatını açıqlayıblar. Təkcə bu iki mütəşəkkil cinayətkarlıq hadisəsi Naxçıvanın keçmiş rəhbərliyinin, onların göstərişlərini yerinə yetirən şəxslərin Cinayət Məcəlləsinin 10-15 maddəsi ilə cəzalandırılmalı olduğunu təsdiq edir.

Maraqlıdır, ötən 1 aya yaxın müddətdə hüquq-mühafizə orqanları ictimailəşdirilən bu faktlar, habelə vətəndaşlar tərəfindən edilən şikayətlərlə bağlı hansı tədbirləri görüblər?

Konkret adlar çəkilir, etiraflar səsləndirilir. Talıbovların cinayətləri demək olar ki, açıqdır, hər şey ortadadır, amma hüquqi prosedurlara hələ ki, start verilməyib...

Ortaya çıxan iddialardan belə məlum olur ki, sahibkarlara qarşı həyata keçirilən mütəşəkkil cinayətkarlıq hadisələrində həmin dövrdə Azərbaycan hüquq-mühafizə orqanlarının bəzi əməkdaşları da iştirak edib. Xüsusən, Talıbov rejiminin təqib etdiyi şəxslərin Bakıda DİN-ə çağırılması, Naxçıvandan göndərilən banda üzvlərinə təhvil verilməsi halları baş verib.

“Flaminqo” restoranının inzibatçısı məhz Azərbaycan DİN-in vasitəsilə sahibkar Cəmil Fərəcovun Naxçıvana girov göndərildiyini açıqlayıb. Bu faktlar keçmiş Daxili İşlər naziri Ramil Usubovla Vasif Talıbov arasında möhkəm dostluq əlaqələrinin mövcudluğundan qaynaqlanıb. Belə məlum olur ki, Talıbovun sifariş etdiyi istənilən şəxs Bakıda hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq Naxçıvandan gələn mütəşəkkil banda üzvlərinə təhvil verilib.

Eləcə də keçmiş Baş prokuror Zakir Qaralov da Vasif Tallıbovla isti, daha da konkretləşdirsək, tabeli münasibətlərə malik olub. Mötəbər mənbələr bildirirlər ki, Qaralov ölkədə baş verən səs-küylü olaylar, iri miqyaslı cinayət hadisələrinin istintaqı ilə bağlı gündəlik Vasif Talıbova məruzə edirmiş.

Lakin dövran dəyişib. İndi nə DİN-in rəhbərliyində Talıbovun bütün qanunsuz sifarişini yerinə yetirəcək adamlar əyləşib, nə də Baş Prokurorluqda ona gündəlik məruzə edən qaralovlar iş başındadır. Belə olduğu halda Talıbovun Naxçıvan dəhşətləri ilə bağlı sahibkarların, cinayət qurbanlarının açıqladıqları dəhşət saçan məlumatlara Baş Prokurorluğun reaksiyası necədir? Mediada gedən çoxsaylı məlumatlar, yazılarla bağlı cinayət işləri açılıbmı?

Bu barədə Baş Prokurorluğa ünvanladığımız sorğunun cavalandırılacağı bildirilib. Ona görə də sualı açıq saxlayırıq.

Hüquq və İnkişaf Mərkəzinin rəhbəri Hafiz Həsənov isə “AzPolitika.info”-ya açıqlamasında bildirib ki, əgər cinayət əməlləri barədə mətbuatda məlumatlar gedirsə və onlar haqqında açıqlamalar verilirsə, bu hallar hüquqi araşdırmaların aparılmasını zəruri edir: ***“İndiki halda Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi olduğu dövrdə törədilən hüquq pozuntuları ilə bağlı araşdırmalar aparılmalı və cinayət əməli ehtimalı yaradan hər bir fakt üzrə cinayət işi başlanmalıdır. Naxçıvan MR-də baş vermiş qanun pozuntuları barədə açıqlamalardan belə qənaətə gəlmək olar ki, bu qanun pozuntuları əsasən, vəzifəli şəxslər tərəfindən törədilən korrupsiya əməllərdir. Ona görə də bu işlərin hər biri Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən araşdırılmalı və qanuna müvafiq tədbirlər görülməlidir”.***

***Rasim Əliyev***

# AMB: "Sığortaçıların avtomobilin icbari sığortasından imtina hüququ yoxdur"

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığortası fəaliyyət üçün müvafiq icazəsi olan sığorta şirkətləri onlara edilən müraciətlərə cavab olaraq avtomobilləri sığortalamaqdan imtina etmək hüququna malik deyil.

Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) açıqlamasında bildirilir.

Qurum bəyan edib ki, “İcbari sığortalar haqqında” qanuna əsasən, sığortaçı müvafiq riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan şəxslə icbari sığorta müqaviləsi bağlamaqdan imtina edə bilməz. Belə halları baş verdiyi təqdirdə vətəndaşlar 966 qaynar xəttinə zəng vurmaqla və yaxud yazılı şəkildə müraciət etməklə AMB-yə şikayətlərini bildirə bilərlər. Daxil olan bütün şikayətlər operativ qaydada nəzarətə götürülərək müraciətdə qeyd edilən məsələlər dərhal araşdırılır və qısa müddət ərzində vətəndaşın seçdiyi sığortaçı tərəfindən icbari sığorta şəhadətnaməsinin buraxılması təmin edilir.




Hal-hazırda avtoicbari sığorta bazarında vəziyyətə nəzarət edilməsi və mövcud problemlərin həlli məqsədilə mütəmadi olaraq AMB ciddi şəkildə monitorinqlər həyata keçirir, hərtərəfli təhlillər və qiymətləndirmələr apalır. Qiymətləndirmələrin nəticələri əsasında zəruri addımların atılması davam etdiriləcək.



# PENSİYAÇILARA QARŞI AYRI-SEÇKİLİK...

## 2022-ci ildə pensiyaya çıxanların təqaüdü daha az artacaq?

Fevralın əvvəlində pensiyaların 15 faiz indeksasiya olunacağı gözlənilir. Hökumət ötənilki inflyasiya faizi ilə bağlı rəqəmlərin dürüstləşməsini gözləyir ki, müvafiq qərar verilsin.

Artıq bəzi dövlət məmurları artımın 15 faiz olacağı barədə məlumatlar səsləndiriblər. Nəticədə əmək pensiyaları 2023-cü ildən etibarən aldıqları təqaüdün 15 faizi həcmində, habelə, daha 16.7 manat artacaq. Bu məbləğ isə ötən il təqaüdçülərə hər rübdə verilən (ildə toplam 200 manat) 50 manatın aylara bölünərək təqaüdlərə əlavə olunmasından yaranır. Əgər bir vətəndaş ötən il 300 manat pensiya alıbsa, yeni ildən o 300+45+16.7 manat= 361.7 manat alacaq.

Amma bu artım heç də bütün pensiyaçılara şamil edilməyəcək. Belə ki, təqaüdə əlavə olaraq ötən il ərzində verilmiş 200 manat (bu il aylara bölünərək əlavə olunacaq 16.7 manat) 2021-ci ilə qədər pensiya hüququ qazanmış vətəndaşları əhatə edir. Əgər vətəndaş 2022-ci il daxil olmaqla daha sonra pensiyaya çıxıbsa, onun təqaüdü ancaq indeksasiya hesabına artacaq. Yəni pensiyasının 15 faizi məbləğində artıq vəsait alacaq. Məsələn, vətəndaş 300 manat alırdısa, 2023-cü ilin yanvarın 1-dən 345 manat təqaüdlə kifayətlənməli olacaq.

Bu isə pensiyaçılar arasında ayrıseçkilik kimi qiymətləndirilə bilər. Hökumət ötən ilki sürətli bahalaşmanı, inflyasiyanı nəzərə alaraq, onlara illik 200 manat əlavə müavinət vermişdi. Şübhəsiz ki, sözügedən problemlər bütün vətəndaşları əhatə edir və hökumət onların hər birinin gəlirlərinin artmasında maraqlı olmalıdır.

O zaman hansı məntiqlə 2022-ci ildə və daha sonra pensiyaya çıxanların təqaüdü 16.7 manat az olmalıdır? Hökumət qurumları bu paradoksa, ayrı-seçkiliyə aydınlıq gətirsələr, yaxşı olar...

***Rasim***

# BƏQƏRƏ SURƏSİNİN MESAJLARI

**XXXIII YAZI**

**(əvvəli ötən saylarımızda)**

**3) "... Mən yer üzündə bir xəlifə təyin edəcəyəm..."**

*"Xəlifə"* sözü ərəbcədir, *"x-l-f"* kökündəndir, Qurani-Kərimdə eyni kökdən olan yüz iyirmi yeddi söz var, bu anlamları daşıyır:

***- "yerini almaq": "Onlardan sonra da bir çox kimsələr gəldi"; (Əraf, 7/169)***

***- "geridə qalmaq": "Mədinə xalqına və onların çevrəsində olan bədəvi ərəblərə Allahın Rəsulundan geri qalmaları və onun canından öncə öz canlarını düşünmələri yaraşmaz"; (Tövbə, 9/120)***

***- "müxalifət etmək": - "Sizə yasaq etdiyim şeylərin əksini edərək sizə müxalif olmaq istəmirəm"; (Hud, 11/88)***

***- "yenisini vermək": - "Siz xeyir üçün nə xərcləsəniz, (Allah) onun yerinə başqasını verər"; (Səbə, 34/39)***

***- "ixtilaf etmək": "İnsanlar arasında fikir ayrılığına düşdükləri məsələlərdə hökm vermələri üçün ... haqq yolu göstərən kitablar da göndərdi"; (Bəqərə, 2/213)***

***- "yerinə yetirmək", "iqtidar vermək": "Onların yerinə sizi ölkədə hakim qılacaq, (sonra) necə hərəkət edəcəyinizə baxacaq", - dedi"; (Əraf, 7/129)***

***- "arxa": "Önlərindən və arxalarından bir sədd çəkdik..."; (Yasin, 36/9)***

***- "sözündən dönmək": "Allah və Rəsuluna qarşı savaşanların və yer üzündə (haqq) nizamı pozmağa çalışanların cəzası ya (acımadan) öldürülmələri, ya asılmaları, ya da sözlərindən dönmələri səbəbi ilə əl və ayaqlarının kəsilməsi, ya da ki olduqları yerdən sürgün edilmələridir. Bu, onların dünyadakı rüsvayçılığıdır. Onlar üçün axirətdə də böyük əzab var"; (Maidə, 5/33)***

***- "ard-arda": "Öyüd almaq, ya da şükür etmək istəyən üçün gecə ilə gündüzü bir-birinin ardınca gətirən də Odur"; (Furkan, 25/62)***

***- "xəlifə": "Xatırla ki, Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə yaradacağam", - dedi"; (Bəqərə, 2/30)***

***- "dəyişik": "Siz dəyişik (ziddiyyətli) sözlər söyləyirsiniz"; (Zariyat, 51/8)***

*"Xələf"* birinin yerinə keçən, onun yerini doldurandır. *"Xəlifə"* birinin yerinə keçib, ondan sonra onun vəzifəsini yerinə yetirəndir, cəmi *"xüləfa"*dır.

Hz. Adəm Allahın deyil, yer üzünün xəlifəsidir. Bir sıra alimlər hz. Adəmin Allahın xəlifəsi olduğunu yazmışlar ki, bu, doğru deyil, belə ki Allahın xəlifəsi olmaz, kimsə Onun yerinə keçə bilməz, ikincisi, Qurani-Kərim açıq biçimdə insanın yer üzünün xəlifəsi olduğunu buyurur: ***"Onlardan sonra necə iş görəcəyinizi görək deyə sizləri yer üzünə xəlifə etdik" (Yunus, 10/14), "Ey Davud, Biz səni yer üzünə xəlifə təyin etdik (seçdik). Sən indi insanlar arasında həqiqətlə hökm ver" (Sad, 38/26), "O, sizi yer üzündə xəlifə qılandır..."*** (Fatır, 35/39).

Uca Allahın hz. Adəmi yer üzünün xəlifəsi təyin etməsi ilə bağlı iki görüş var: birincisi, bu, Onun elçiliyi anlamını daşıyır, ikincisi, bu, insan oğlunun məsuliyyətli varlıq olaraq yaradılmasıdır. Biz ikinci görüşü doğru sayırıq, belə ki yer üzünün xəlifəsi olmaq təkcə hz. Adəmə aid bir məsələ deyil, hər insan yer üzünün xəlifəsidir (hər insan elçi deyil, ancaq xəlifədir), insan nəsilləri bir-birinin ardınca gələrək xəlifəlik işini yerinə yetirirlər.

Allah mələklərə buyurur ki, Mən yer üzündə bir xəlifə yaradacağam. Bu, Allahın mələklərdən razılıq almaq istəyini ifadə etmir (edə bilməz, O, kimdənsə izin almaz). O, mələklərə bilgi (məlumat) verir, insanlara da məşvərət / məsləhət əxlaqını öyrədir, bir də buyurur ki, mələklər qeybi bilməz.

Bir sıra Qurani-Kərim tərcümələrində Bəqərə surəsinin otuzuncu ayəsinin şərh etdiyimiz hissəsi belə tərcümə olunmuşdur: ***"... Mən yer üzündə bir xəlifə yaradacağam..."***. Bu, yanlış tərcümədir. Belə ki ayədə xəlifə yaratmaq deyil, xəlifə təyin etmək vurğusu var. Allah yaradılmış olan insana yeni bir vəzifə verir, bəşər olan varlıq məsuliyyət şüuru yüklənərək insan olur, xəlifə təyin edilir, onun dərəcəsi yüksəldilir, yəni ayədə buyurulan insanın ilk yaradılışı deyil, xəlifə təyin edilməsidir.

Allah insanı xəlifə təyin etməklə yer üzünün mülkiyyətini ona əmanət etmişdir. Bu anlamda bütün insanlar yer üzünün xəlifəsidir: ***"... O, sizi yer üzünə mirasçı qılmış, bəxş etdiyi nemətlərlə sizi sınamaq üçün bir qisminizi başqa qisimlərinizdən dərəcələrlə üstün qılmışdır..."*** (Ənam, 6/165), ***"... (Odur) sizi yer üzünün xəlifələri edən"*** (Nəml, 27/62), ***"Odur sizi yer üzündə xəlifələr qılan..."*** (Fatır, 35/39).

Allah insanı yer üzünün xəlifəsi təyin edir, ona məsuliyyət şüuru, səlahiyyət, nemətlər verir. Xəlifə təyin edilən insan bəşər olan (yer üzündə fəsad çıxaran, qan tökən, vəhşi) *"insanın"* yerinə keçmişdir.

**1) "(Mələklər) belə soruşdular: "Yer üzündə fəsad çıxaran və qan tökməkdə olan birini təyin edəcəksən?"**

*"Fəsad"* sözü *"f-s-d"* kökündəndir, ***"... istər az, istər çox olsun, bir şeyin ölçüdən çıxması, həddi aşmasıdır, ziddi "səlah"dır"*** (Rağıb el-İsfahani, Müfredat, s. 795). Fəsad qarışıqlıqdır, ilahi nizamın pozulmasıdır.

Bir sıra Qurani-Kərim tərcümələrində ayə belə tərcümə olunmuşdur: ***"(Mələklər) belə soruşdular: "Yer üzündə fəsad çıxaracaq və qan tökəcək birini təyin edəcəksən?"*** Bu tərcümə doğru deyil, belə ki mələklər qeybi bilməzlər: ***"De: "Göylərdə və yerdə Allahdan başqa heç kimsə qeybi bilməz"*** (Nəml, 27/65). İkincisi, Allah yer üzündə xəlifə yaradacağam buyurmur, xəlifə təyin edəcəyəm buyurur, ayədə yaradılışdan söhbət getmir, bəşər olan, fəsad çıxaran, qan tökən insanın dərəcəsinin artırılaraq xəlifə təyin edilməsindən danışılır (insan ondan öncə yaradılan cinlərin deyil, bəşər olan insanın yerinə keçmiş, xəlifə olmuşdur), yaradılmış insan (bəşər) xəlifə təyin edilir. Üçüncüsü, ərəb dilində qəti gələcək zamanı ifadə etmək üçün feillərin əvvəlinə *"sin"*, ya da *"səvfə"* ədatları artırılır. Ayədəki feillərin önündə bu ədatlar yoxdur.

Mələklər bəşər olan insanın yer üzündə fəsad çıxardığını, qan tökdüyünü (indi, hal-hazırda, gələcəkdə deyil, mələk qeybi bilməz) görür, sual verirlər. Bu sual Allahdan hesab soruşmaq anlamında deyil (mələklər uca Allahın yasasına boyun əyər, (Nəhl, 16/49-50) Rəblərindən qorxar, Ona itaət edər, üsyan etməzlər, verilən əmrləri yerinə yetirərlər...): ***"Mələklər heç bir sözdə Allahın önünə keçməzlər və onlar Allahın əmr etdiyi şeyi eyni ilə yerinə yetirərlər"*** (Ənbiya, 21/27).

O halda, mələklərin sualının anlamı nədir? Onlar qeybi bilmir, Allahın yer üzündə fəsad çıxaran, qan tökən birini xəlifə təyin etməsinin hikmətini anlamır, məsələnin mahiyyətini öyrənməyə çalışırlar. Yer üzündə yaradılmış olan bir bəşər var idi, o, fəsad çıxarır, qan tökürdü, vəhşi idi, mələklər də bu halı görürdülər, belə olduğu halda, Allahın o bəşər olan insanı xəlifə təyin etməsini anlamırdılar.



Bir məsələni də unutmayaq ki, bu, bir təmsili izah biçimidir.

**5) "... Biz səni həmd ilə təsbih və təqdis edirik..."**

*a) Həmd anlayışı*

Ayədə mələklərin üç işi sıralanmışdır: həmd, təsbih, təqdis.

*a) "əl-Həmd" anlayışı*

***"Həmd"*** sözü ərəbcədir, ***"öymə", "təşəkkür", "şükür", "mədh"*** kimi sözlərlə yaxın mənalıdır. Allah buyurur ki, yaradılan hər varlıq öz dili ilə Onu təsbih edir, öyür, Onun adına hərəkətdədir, Onun qoyduğu qanunlara (sünnətullah) tabedir.

***"Həmd"*** sözü ***"mədh" ("tərif")*** sözündən daha dar anlama sahibdir. Mədh canlı və cansız hər varlığa aid ola bilər. Həmd isə ancaq Allaha məxsusdur, başqa bir varlığa həmd etmək olmaz. Böyük təfsir alimi Fəxrəddin Razi ***"həmd"*** ilə ***"mədh"*** arasında dörd fərq olduğunu yazır:

***- mədh canlı, cansız hər varlığa aid ola bilər, ona görə də mədh ümumi, həmd xüsusidir, yalnız Ona aiddir;***

***- mədh yaxşılıqdan öncə də, sonra da ola bilər, həmd isə yaxşılıqdan sonra olar;***

***- mədh yasaqlana bilər, həmd etmək isə ilahi əmrdir, yasaqlana bilməz;***

***- mədh fəzilət növlərindən birinə xas olan sözdür, həmd isə Onun fəzilətli olduğuna işarə edir. Onun fəzilətli olması nemət verməsi, yaxşılıq etməsidir; (Fahruddin ər-Razi, Tefsir-i kebir, Mefatihul-Gayb, İstanbul, 2013, c.I, s. 306-307)***

Alim şükürlə həmdin fərqini də bu sözlərlə ifadə edir: ***"... Həmd nemətin sənə, ya da bir başqasına verilməsini əhatə edir, şükür isə sadəcə sənə verilən nemətlərə məxsusdur"*** (Fahruddin ər-Razi, Tefsir-i kebir, Mefatihul-Gayb, İstanbul, 2013, c.I, s. 307).

Tərif bir yaxşılıq və gözəlliyə görədir, həmd isə iradə və istəklə hasil olan yaxşılıq və gözəlliyin qarşılığıdır. Yaradılan heç bir varlıq həmdə layiq deyil, ona görə ibadət və itaətə də layiq deyil. Hər hansı bir gözəllik və yaxşılığa sahib olan varlıq o gözəllik və yaxşılığın mütləq sahibi deyil, gözəllik və yaxşılıq ona verilmişdir. Allah isə gözəllik və yaxşılıqların mütləq sahibi, qaynağıdır, O, əl-Xeyir olan Allahdır.

Mədh (tərif) bir varlığı gözəl vəsflərlə təriflməkdir, şükür verilən bir şeyin qarşılığıdır, həmd isə versə də, verməsə də Allahı ən gözəl sözlərlə xatırlamaqdır.

Həmd etmək nemətləri verənin Allah olduğunu bilməkdir, həmd duadan üstündür. Qurani-Kərimin beş surəsi həmdlə başlayır: Fatihə, Ənam, Kəhf, Səbə, Fatır.

Allah Rəsulu buyurur: ***"Allaha həmd olsun dediyin zaman Ona şükür etmiş olursan, Allah da sənə olan nemətini artırır".***

İbn Abbas deyir ki, həmd şükür əlamətidir. Ondan gələn bir rəvayətə görə yaratdıqlarına lütfündən dolayı Ona şükür edilməlidir.

Zəməxşəri deyir ki, həmd şükrün bölümlərindən biridir.

Təbəri həmdi belə tanıdır: ***"Uca Allaha itaət edilməsi üçün bütün vasitələri verməsi, əmrlərinin yerinə yetirilməsi üçün mükəlləf olanların vücud orqanlarını uyğun bir şəkildə yaratması, layiq olmadıqları halda, onları dünyada çeşidli nemətlərlə ruziləndirməsi, onlara içi nemətlərlə dolu əbədi cənnətə gedən yolu göstərməsi kimi saysız-hesabsız nemətləri qarşılığında şükür edilmək sadəcə Ona məxsusdur..."*** (Əbu Cəfər Muhammed bin Cerir et-Taberi, Taberi tefsiri, İstanbul, 2012, c. I, s. 81)

Dəhhak deyir ki, Abdullah ibn Abbas belə rəvayət etdi: ***"Əlhəmdülillah demək Allaha şükür etmək, Ona boyun əymək, Onun nemətlərini, hidayətini, bizi yoxdan var etməsini qəbul və iqrar etməkdir"*** (Əbu Cəfər Muhammed bin Cerir et-Taberi, Taberi tefsiri, İstanbul, 2012, c. I, s. 81).

Kabul Əxbar əlhəmdülillahın Allahı öymək olduğunu söyləmiş, bunun bir nemətin qarşılığında olub olmadığına aid hər hansı bir şey deməmişdir. (Əbu Cəfər Muhammed bin Cerir et-Taberi, Taberi tefsiri, İstanbul, 2012, c. I, s. 81)

Təbəri deyir ki, ***"əlhəmdülillah"*** kəliməsinin əvvəlindəki ***"əl"*** müəyyənlik əlaməti ümumi məna ifadə edir, yəni istisna yoxdur, bütün öygü və şükürlər yalnız Allaha məxsusdur. (Əbu Cəfər Muhammed bin Cerir et-Taberi, Taberi tefsiri, İstanbul, 2012, c. I, s. 81)

Fəxrəddin Razi "həmd" sözünün daşıdığı mənaları on yeddi maddədə açıqlamışdır:

***- öncə mədh və şükürlə həmdin fərqlərini izah etmişdir (bu fərqləri təqdim etdik);***

***- Allah "Allaha həmd edirəm" buyurmayıb, "həmd Allaha məxsusdur" buyurub. İkinci cümlə daha üstündür, belə ki bu cümlə Allahın Ona həmd və şükür edənlərin varlığından öncə də həmdə layiq olduğunu göstərir, O, əzəldən əbədiyyədək Mahmuddur (həmd edilmiş olandır). Həmd Allahın haqqı və mülküdür, qullarına verdiyi saysız-hesabsız nemətlərə görə həmdə layiq olan tək varlıqdır. Həmd Allahın zatından dolayı sahib olduğu bir haqdır;***

***- "Əlhəmdülillah" ifadəsinin əvvəlindəki "əl" artiklı deyir ki, Allah hər şeyin sahibidir, hər şeyə hakimdir;***

***- "Əlhəmdülillah" sözü səkkiz hərfdir, Cənnətin qapılarının sayı da səkkizdir. Hər kim qəlb təmizliyi ilə bu səkkiz hərflik cümləni söyləyərsə, cənnətin səkkiz qapısından da girmək haqqını qazanar;***

***- nemətlərin gerçək sahibi və onları yaratdıqlarına verən Allahdır;***

***- Allahdan başqa həmdə layiq kimsə, nəsə yoxdur;***

***Ardı var...***

***Sıracəddin Hacı***



# Makron Pəhləvilərə belə xidmət göstərir

**Məşhur TVİTİN sirləri açıldı**

**”4 aydır davam edən etirazlara rejimin reaksiyasının 44 illik molla hakimiyyəti dönəmində iğtişaşlara, böhranlara qarşı göstərilən münasibətdən fərqli olmayacağı əvvəldən bəlli idi. Zorakılıq, şiddət, kütləvi həbslər, edamlar, işgəncələr və s. Bu reaksiyaların forması nə qədər eyni olsa da, proseslərdə göstərilən zorakılıq mahiyyət olaraq çox fərqli məna və məqamları özündə əks etdirir”.**

Bunu Finlandiyada yaşayan Güney Azərbaycandan olan siyasi şərhçi Çingiz Göytürk deyib.

Siyasi şərhçi bildirib ki, daha öncəki böhranlarda repressiv tədbirlərin məhz güc mövqeyindən cəmiyyətin önündə bir qorxu divarı hörmək məqsədilə tətbiq edildiyini görürük: ***"Bu etirazlarda sərgilənən aqressiya və zorakılıq isə daha çox molla hakimiyyətinin 44 ildir hördüyü qorxu divarlarını aşan insanların əzmi, iradəsi qarşısında duyduğu qorxu və çarəsizliyin ifadəsidir. Dünya ictimaiyyəti və beynəlxalq qurumların etirazlara geniş dəstəyi də rejimin qorxu və çarəsizliyini qat-qat gücləndirən digər bir faktordur. Son günlərdə rejimin repressiv tədbirlərinin daha da sərtləşməsi ilə eyni zamanda proseslərin qismən səngidiyini müşahidə edirik. Ancaq bunu sadəcə rejimin qatı repressiv tədbirləri ilə əlaqələndirmək qətiyyən doğru deyil.***

***İran adlanan ölkədə qeyri-fars millətlərin 100 ildən artıqdır uğradığı bütün milli haqsızlıqların başında Pəhləvi sülaləsi, həmin sülalənin söykəndiyi paniranist, panfarsist ideologiya dayanır. Bu sülalənin başda Güney Azərbaycan olmaqla qeyri-fars millətlərə qarşı dəfələrlə qətliamlar, soyqırımlar gerçəkləşdirdiyini bilirik. Eyni zamanda mövcud etirazların qeyri-fars millətlərin yaşadıqları coğrafiyalarda daha kəskin bir şəkildə cərəyan etdiyini nəzərə alsaq, müvəqqəti səngimənin səbəblərini daha dəqiq izah etmiş olarıq. Eyni paralelliyi dünya dövlətlərinin, xüsusilə Avropa ölkələrinin münasibətlərində də görürük. Böyük Britaniya, Almaniya, Niderland kimi bir çox ölkələr İranda inqilabi dəyişikliklərin yanında olduqlarını hər fürsətdə bəyan edirlər. Ancaq Fransanın toplumun inqilabi dəyişikliklər istəyini, qeyri-fars millətlərin milli haqq və azadlıq tələblərini görməzlikdən gələrək fars irticasını təşkilatlandırma səyləri diqqətdən qaçmır. Xatırlayırsınızsa, Fərəh Pəhləvi Fransa Senatına dəvət olunmuşdu və orada onu gələcək İranın sahibi kimi qarşılamağa çalışmışdılar. Bir sıra iranlı aktivist şəxsən Emmanuel Makron tərəfindən dəvət olundu, Parisdə onların hər biri ilə ayrı-ayrılıqda görüş keçirildi. Yanvarın 1-də isə onların Rza Pəhləvi ilə bir ittifaqı xatırladan eyni mətndə tvitə imza atmaları istər-istəməz insanlarda çox ciddi şübhələrə əsas verir. Bunun mərkəzində Fransanın və onun başçısının durması çox düşündürücü bir məqamdır.***

***Bu gün İran toplumu öz inqilabi dəyişim iradəsini ayaqda saxlamaq və hər hansı bir inqilaba yol verməmək üçün 2 cəbhədə - molla hakimiyyətinə və Pəhləvi irticasına qarşı savaşmaq məcburiyyətində buraxılıb. Bu gün hərəkat irticanın hər növünə yox deyərək ağır, amma vacib bir mərhələni arxada buraxmaq istəyir. Yəni bu səngimə düşünmək üçün zaman qazanmaq və irticanın yeni həmlələrinə qarşı yeni inqilabi yollar, planlar, yol xəritəsi ortaya qoymağa yönəlik bir durumdur. Hesab edirəm ki, bu gün İran adlanan məkanda cərəyan edən hərəkat özünün bir mərhələ irəliyə getməsi dönəmini yaşayır".***

# *R.Auraq:* "Əgər Makron tarix oxusaydı, cəfəngiyyat danışmazdı"

**Fransanın siyasəti uzun müddətdir ki, dünyanın bir çox ölkələrində, xüsusən də Əlcəzairdə narazılıqlara səbəb olur. Paris hələ də müstəmləkəçilik dövrü və bu ölkədə fransızların törətdikləri soyqırımına görə Əlcəzair xalqından üzr istəməkdən imtina edir. Üstəlik, Fransa Prezidenti Emmanuel Makron Əlcəzairi tarixi saxtalaşdırmaqda və keçmişi siyasiləşdirməkdə ittiham edib. Fransa liderinin sözlərinə görə, guya müstəmləkəçilərin gəlişindən əvvəl Əlcəzairdə dövlətçilik mövcud olmayıb.**

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev bu yaxınlarda etdiyi çıxışlarının birində qeyd edib ki, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanla Fransa arasında münasibətlər gərgin olub: “Müharibə zamanı Fransa açıq şəkildə bizi ittiham etdi, böhtan atdı. İndi mən onlardan üzr istəmələrini tələb edirəm”.



Əlcəzairli analitik, konfliktoloq, beynəlxalq məsələlər üzrə ekspert Ramdan Auraq Oxu.Az-a müsahibəsində vurğulayıb ki, Prezident İlham Əliyev ikili standartlardan ibarət ikiüzlü siyasət yürüdən Fransanı qınamaqda haqlıdır.

***- Prezident Emmanuel Makron bu yaxınlarda bildirib ki, Fransa müstəmləkəçilik və soyqırımı dövrünə görə Əlcəzairdən bağışlanma istəməməlidir. Eyni zamanda Makron hesab edir ki, Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Əbdülməcid Tebbun ilə birgə iki ölkəni barışdırmaq istiqamətində səylər göstərəcək və Fransanın üzr istəməsinə gərək qalmayacaq. Hazırda Fransa ilə Əlcəzair arasında münasibətlər necədir və niyə Paris üzr istəmək istəmir?***

- Əgər beşinci Fransa Respublikasının müstəmləkə keçmişinə qayıdıb, cinayətlərə və soyqırımına görə rəsmi üzr istəməsindən danışsaq, Parisin bu məsələlərlə əlaqədar narahatlığı var, çünki bu, Fransa üçün hüquqi və maliyyə məsuliyyətləri yarada bilər. Əgər tribunal olarsa, etnoloqların, radiasiya təhlükəsizliyi üzrə ekspertlərin iştirakı ilə proseslər başlansa, o zaman Fransa üçün çoxlu əlverişsiz suallar ortaya çıxa bilər.

Yəqin ki, Fransanın Əlcəzairdəki Saxara səhrasında nüvə sınaqları keçirdiyindən xəbəriniz var (hesab olunur ki, ən azı 17 belə hal olub – red.). Bunun nəticələri çox ağır oldu, təsirinin izləri çoxlu sayda insanda qaldı, ətraf mühitə ziyan dəydi. Fransa və onun müttəfiqləri bu zərəri ödəmək istəmirlər, buna görə də rəsmi üzr istənilmir.

Digər tərəfdən, bu, guya “ağ adamın yükünü” daşıyan Fransanın təkəbbürünün təzahürüdür. Cozef Redyard Kiplinqin “Ağ adamın yükü” (The White Man's Burden) şeirini xatırlayın. Fransa ilə Əlcəzair arasında islam-xristian qarşıdurması tarixindən qaynaqlanan sivilizasiya toqquşması mövcuddur. Ərəb xilafəti var idi və Əlcəzair həmişə böyük müharibələrin sərhədində yerləşib. Tarixi yaddaş qorunub-saxlanılıb və hər bir əlcəzairli, müsəlman qərb, anqlosakson, katolik sivilizasiyasının təqsirlərini xatırlayır.

Əgər presedent olarsa və Fransa Əlcəzair xalqına qarşı törətdiyi cinayətləri tanıyarsa, o zaman liviyalılar, tunislilər, mərakeşlilər və bütün Afrika qitəsi Fransadan üzr və təzminat tələb edəcək. Belçikalıların Afrikada nələr törətdiklərini xatırlayırsınız? Onlar insan davranışının bütün sərhədlərini aşıblar. Buna görə də avropalılar, Avropa İttifaqı özünün müstəmləkə keçmişinə yenidən baxılmasını, təftiş edilməsini istəmir. Və təbii ki, onların bizim komprador (qeyd-şərtsiz xarici kapitala tabe olan təbəqə - red.) elitalarımıza təzyiq vasitələri var.

***- Amma bildiyim qədərilə Makronun təmsil etdiyi Fransa 1994-cü il Ruanda soyqırımının məsuliyyətini öz üzərinə götürüb. Bundan əlavə, Fransız Polineziyasında keçirilən nüvə sınaqlarına görə də üzrxahlıq olub. Bəs o zaman Makronun Əlcəzairdən üzr istəməsinə nə mane olur?***

- Mən bunu sizə izah edim. Makron Fransadakı prezident seçkisi ərəfəsində Əlcəzair xalqından da üzr istəyib. Amma bu, hüquqi müstəviyə düşməyən siyasi piar səviyyəsində bir bəyanat idi. Prezidentliyə namizəd Emmanuel Makronun sözləri sırf mediayönümlü xarakter daşıyırdı. Eyni şey Ruanda və Fransız Polineziyasına da aiddir - bu bəyanatlar hüquqi müstəvidən kənar məzmun daşıyırdı. Gəlin açıq deyək ki, İosif Stalin olmasaydı, Avro-Atlantik məkanda indiki Fransa da olmazdı. Anqlosakslar Fransanın İkinci Dünya müharibəsində faşizm üzərində qalib gəlmiş ölkə statusuna malik olmasına qarşı idilər.

Fransa baş verən sosial-iqtisadi, sosial-mədəni transformasiyalara görə bizə nəyisə diktə edə biləcək bir sistem olmaqdan çıxacaq. Mən digər məsələlərlə yanaşı, Məğrib regionundan (Misirin qərbində Şimali Afrika ölkələri – red.) miqrasiyanı və Fransanın özündəki demoqrafik prosesləri nəzərdə tuturam. Bu, zaman məsələsidir.

Prezident İlham Əliyevin Fransanın adını çəkərək, onun ikiüzlülüyündən danışması tam həqiqət idi. Və biz bu məsələdə Azərbaycanla tam həmrəyik.

Mən mövzunu davam etdirmək istəyirəm. Fransada hələ də “İnsan Muzeyi” (Musee de l'Homme) var. Orada 18 min insan kəlləsi saxlanılır və ziyarətçilərə sərgilənir. Bunlar Əlcəzairin müstəmləkə altında olduğu zaman fransız quldurlar tərəfindən kəsilən əlcəzairlilərin başlarıdır. Onlar gələcək İŞİD-in prototipinə çevrildilər. Kütləvi baş kəsmək İŞİD-ə aid davranış deyil, hər şeyi Fransa başladıb.

Vaxtaşırı uzun danışıqlardan sonra fransız müstəmləkəçilərə qarşı döyüşlərdə həlak olmuş qəhrəmanlarımızın bir neçəsinin kəlləsini bizə “xoşməramlı jest” kimi qaytarırlar. İndi siz bu “sivil dövlət”in səviyyəsini anlayırsınız? Onlar qətlə yetirilən 18 min əlcəzairlinin kəlləsindən ibarət muzey açıblar.

***- Amma ötən il Makron Əlcəzairi tarixi saxtalaşdırmaqda ittiham edərək, müstəmləkəçilərin gəlişindən əvvəl Əlcəzair dövlətçiliyinin olmadığını demişdi. İndi bu o anlama gəlir ki, əlcəzairlilər hələ bütün baş verənlərə görə Fransaya təşəkkür etməlidirlər?***

- Bizi müstəmləkəyə çevirəndən sonra onlar bütün resurslarımızı mənimsəyib daşıdılar. Hətta Parisin simvoluna çevrilən Eyfel qülləsi də Əlcəzairin şərqindən çıxarılan və qeyri-qanuni olaraq ixrac edilən dəmir filizindən hazırlanıb.

Əgər tarixdən danışsaq, Əlcəzair bir əyalət olaraq Osmanlı imperiyasının tərkibində idi. Daha əvvəl isə Məğrib orduları Əndəlüsdən Puatyeyə qədər olan ərazilərə nəzarət edirdi. Ona görə də tarix elə gətirə bilərdi ki, Fransa Xilafətin və ya Osmanlı imperiyasının tərkibində ola bilərdi. Amma bu səhvi Qərbdə, xüsusən də Fransada müşahidə etdiyimiz deqradasiyanı nəzərə alıb düzəltmək olar. Gec-tez biz Fransanı abordaj üsulu ilə götürəcəyik.

Mən emosional danışıram, amma mövzu mənim heysiyyətimə toxunur. Makron tarixi, Əlcəzair millətinin varlığını inkar edir. Görünür, onun savadsız və tərbiyəsiz olması özünü göstərir. Əgər tarix oxusaydı, dərslərini buraxmasaydı, o zaman belə boş şeylər deməzdi.

Ərəb xilafətinin və Osmanlı imperiyasının dünyanın mədəni irsinə, elm və texnologiyanın inkişafına verdiyi töhfələr hamıya məlumdur. Əlcəzair isə həmin dünyanın ayrılmaz hissəsi idi. Bunu necə inkar etmək olar? Bu, axmaqlıq və nankorluqdur.

İndi bizim Fransa ilə münasibətlərimiz gözləmə xarakteri daşıyır. Amma gec-tez Fransa bunun hesabını verməli olacaq. Onlar başa düşməlidirlər ki, qonşuları ilə dost olmalı, təkəbbür göstərməməli, konstruktiv dialoq aparmalıdırlar. Əhəmiyyətli hissəsini Məğrib ölkələrindən: Əlcəzairdən, Tunisdən, Mərakeşdən olan insanların təşkil etdiyi fransa xalqının gələcəkdə özünə müdrik siyasətçi seçəcəyinə ümid edirəm. Əsas odur ki, belə Makronlar gələcəkdə nə sizi, nə də bizi qıcıqlandırsınlar.

***Nair Əliyev***

# Unudula bilərik

## Məcazdan uzaq...

**Bu məmləkətdən dünyada yoxdur. Bunu məcazdan uzaq deyirəm. Birbaşa mənada. Çünki doğrudan da bizim məmləkətdən dünyada yoxdur - həm mənfisi, həm də müsbətindən.**

Mənfiliklərdən danışsaq, buna günlərlə vaxt gərəkdir. Amma vaxtın özü də çox gərəklidir axı. Problem səviyyəsindən çıxaraq həyat tərzinə çevrilən mənfilikləri aradan qaldıran, həll edən nədir, heç ona baxan, nəzər yetirən də yoxdur. Nəzər yoxdursa, nəzarətdən danışmağına da dəyməz.



"Döymişi dura-dura", "kalı"ndan bəhs etməyə nə hacət?! Elə belə olduğu üçün də həyat tərzimizin anına, dəqiqə və hər vaxtına hopmuş mənfiliklərdən danışmaqdan, yazmaqdan da usanmaq olarmış. Bunu da missiyamızın maarifçilik olduğuna artıq şübhə baxışının formalaşmasında günahkar olanların menyusuna yazaq. Hər halda, "hesab"ın onlarlıq olduğu məqamın da gələcəyi zaman var. Və bunu görmək üçün yaşamaq məqsədi də...

"Küçə"miz "toy-bayram"ı çoxdan yadırğasa da...

Əhalimiz gündəlik, aylıq, illik problemlərini deməyə ünvan axtarsa da...

Gecə yatıb səhərinin dünənkindən daha "fərqli" olduğuna məəttəl qalsalar da...

İstənilən vaxtda, məqamda cəmiyyətdən icazəsiz ona "bahalı həyat" yaşadanların, bahalıq gündəmi yaradanların cavabdehliyi soruşulmasa da...

Sadədən-mürəkkəbə, ibtidaidənaliyə, bir sözlə, aşağıdan-yuxarıya qədər, hər nə var, göründüyü kimi olmasa, yaxud olduğu kimi görünməsə də...

Mövlanənin sözləri yadıma düşür, amma hansının olduğunu deməyəcəyəm, maraqlanan axtarıb tapsın, maariflənmək istəyən bir kitabın qatını açsın...

Gələcək dediyimiz naməlum, zamanı bilinməyən vaxt məfhumunun kürəyinə yükləmişik həllolunmazları, çoxillikləri. Nə yazıq - bizə də, gözlənilənə də...

Bura qədəri ola bilsin, dilemmadır. Qarşıdan isə yenə də fövqəladə tarixlər gəlir.

O tarixlərin yaddaşı qanla yazıldığı üçün yarasına qaysaq ola, onu sarıya bilmirik. Adı yanvar, özündə, bu sözdə, mahiyyətində yanmaq, yanmaq, əbədilik yanmaq var...

Özü də neçə onillikdir, tarixi, vaxtı, il dönümü dəyişir, amma mahiyyətinə hopanın izi solmur. Bizə, qandan yoğrulan yaddaşımıza əbədilik möhür vurulan bir tarixdən danışıram. Halbuki məsuliyyətinə güvənərək pilləkənin yuxarısına qoyulanların əksəri buna yalnız sıradan bir təqvim hadisəsi kimi yanaşaraq, 20 Yanvar günü hansısa tədbirlərin olacağını, keçirəcəklərini deyirlər...

Bu tarixi qanıyla yazanların da bizim hər birimiz kimi yaşamaq, bu günləri görmək haqqı varıydı. Fəqət o haqqı itirənlər var, nə yazıq...

Çox da yaşlı, gənc, yeniyetmə deyil, azyaşlı bir uşaq isə valideynindən hər il Xiyabana getməyi xahiş edir. Baxmayaraq ki, təkcə soyuq 20 Yanvar tarixindən savayı, yayın qızmarında da Şəhidlər Xiyabanını ziyarət edir...

O uşaqdan öyrənməli az deyil, çox deyil, hər şey var...

Ondan öyrənməli olanlardan, haqqa girənlərdən bəhs etdim az əvvəl. Balaca bir uşağın ürəyi qədər olmayanlardan, əlbət.

Haqqında çox danışmayacağam 20 Yanvar Gününə ümummilli hüzn günü kimi deyil, "işdən bir gün istirahət etmək, evdə qalmaq girəvəsi" kimi baxanlardan. Onlar çox olmasa da, dedikləri sözün, etdikləri əməlin günahı böyükdür...

Bəlkə də ildə bir dəfə haqqında daha geniş danışıldığına, ildönümündə anıldığına, müxtəlif sektorlu tədbirlər keçirildiyinə görədir məsələnin, daha doğrusu, problemin mahiyyəti.

Bəlkə də istənilən hər məqamda, zamanda anılsa, konkretləşdirsək, vaxtaşırı ondan sitatlar gətirib qan yaddaşımızı təzələsək, belə olmazdı. Sayğı, hörmət, eyni zamanda, təbliğat təkcə ildə bir dəfə yada salmaqla olmur ki.

...Sıralanan ayların növbətisi fevral, daha sonra mart olacaq. Xocalı soyqırımının acısı mart soyqırımına məruz qalanların faciəsinə qarışacaq. 26 fevral 31 martdan əvvəl gələcək...

Nə olsun ki faciənin biri əsrin əvvəllərində, digərisə sonlarında baş verib?

Bugünümüz üçün həyatını faciəylə itirənləri, dünənimizi qanıyla yazanları görəsən, nədən ildə bir dəfə yada salmalıyıq?

İlhesabı desək, apreldən öncə də may imiş...

Və o tarixi yazanları da təqvimin hər günündə, ayında deyil, ildə bir dəfə yada salırıq, zatən.

Yuxarıda demişdim, bizdən dünyada yoxdur. Dünyamızı quranları, bizim üçün yananları bircə dəfə yada salmaqla birillik unuduruqsa, biryolluq unudula bilərik. Məcazdan uzaq, birbaşa anlamda...

***Nigar Orucova***

## Veteranlar Ümumxalq Hüzn Gününün 33-cü ildönümü ilə bağlı Şəhidlər Xiyabanını ziyarət edib



Dünən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının nümayəndələri 20 Yanvar – Ümumxalq Hüzn Gününün 33-cü ildönümü ilə əlaqədar olaraq Şəhidlər Xiyabanını, o cümlədən "Əbədi məşəl" abidəsini ziyarət edib, şəhid məzarlarına gül dəstələri qoyublar. Polkovnik Cəlil Xəlilovun rəhbərliyi altında gerçəkləşən ziyarət zamanı veteranlar azyaşlı məktəblilərlə də həmsöhbət olub, şəhidlərimizin qəhrəmanlığı, göstərdikləri şücaətlər haqqında onlara ətraflı məlumat veriblər.

Daha sonra veteranlar Türk Şəhidliyini ziyarət edib, vətənimizin azadlığı uğrunda canından keçən türk şəhidlərini ehtiram hissi ilə anıblar. "Türk Şəhidliyi" abidəsi önünə qərənfillər düzən veteranlar, bütün şəhidlərin ruhuna dualar oxuyub, onların sevgisinin xalqımızın qəlbində əbədi yaşayacağını bildiriblər.

***Seymur ƏLİYEV***



## Rusiyalı vəkillər Putinə açıq məktub yazıb: İmzalayanların sayı artmaqdadır...

**"Navalnının xarici görkəmi onun qeyri-insani şəraitdə saxlanıldığını sübut edir..."**

*"Həmkarımızın Konstitusiya hüquqlarının pozulmasına və insan ləyaqətinin alçaldılmasına sakit qala bilmərik və buna ixtiyarımız yoxdur..."*

*"Navalnının uzun müddət və uydurulmuş bəhanələrlə cərimə təcridxanasında saxlanılması işgəncədir, sağlamlığına ağır zərər vurur və həyatına birbaşa təhlükə törədir..."*

*"Dövlət öz vətəndaşına qarşı bütün sivil dünyada qadağan edilmiş işgəncələrdən istifadə edir..."*

Rusiyalı vəkillər prezident Vladimir Putinə açıq məktub yazaraq müxalifətçi Aleksey Navalnının ələ salınmasına son qoyması tələb edib. Onlar onun Vladimir vilayətindəki koloniyasında saxlanma şəraitini işgəncə adlandırıb.

Məktubun mətnini Sankt-Peterburqdan olan vəkil Viktor Drozdov özünün "Facebook" səhifəsində dərc edib. Məlumatı "Deutsche Welle" nəşri yayıb.

*"Bu gün biz Rusiyada fəal siyasi fəaliyyəti fonunda cinayət təqibi ilə əlaqədar vəkil statusundan məhrum edilmiş həmkarımızın Konstitusiya hüquqlarının pozulmasına və insan ləyaqətinin alçaldılmasına sakit qalmağı bacarmırıq və buna ixtiyarımız yoxdur"*, - məktubda deyilir.

Vəkillər xatırladıb ki, Rusiya Federasiyası Konstitusiyasına görə, heç kim işgəncələrə və zorakılığa məruz qala bilməz. *"Uzun müddət ərzində cərimə təcridxanasında saxlanılma açıq-aşkar işgəncədir və faktiki olaraq onun sağlamlığına ağır zərər vurur, həyatına birbaşa təhlükə törədir.*

*Cərimə təcridxanasına salınma səbəbləri nəinki uydurulmuş, həm də açıq şəkildə nümayişkaranədir, məhbusun islahına deyil, onun ələ salınmasına yönəlib"*, - müəlliflər yazıb və xatırladıb ki, bu, Navalnının sayca 10-cu dəfə cərimə təcridxanasına salınmasıdır və səbəb də icazə verilən müddətdən yarım saat tez yuyunmasıdır.

Navalnının xarici görkəmi onun qeyri-insani şəraitdə saxlananıldığını sübut edir, vəkillər hesab edir. Cəzaların İcrası üzrə Federal Xidmətin müxalifətçiyə lazımi dərman preparatlarının ötürülməsindən imtina etməsi isə onun həyatına birbaşa təhlükə törədir. Vəkillər hesab edir ki, Navalnının cərimə təcridxanasında saxlanılması *"onun bu vəziyyətində mütləq əksgöstərişdir"*.

*"Hüquqi nöqteyi-nəzərdən cəmiyyət dövlətin Rusiya vətəndaşına qarşı dünyanın bütün sivil ölkələrində qadağan edilmiş işgəncələrdən istifadə etməsinin bütün əlamətləri olan qərəzli münasibətinin şahidi olub"*, - vəkillər yazıb.

Məktubda hüquq müdafiəçiləri *"Aleksey Navalnıya qarşı təhqirlərə son qoymağı"* tələb edib, *"Navalnının cərimə təcridxanasında saxlanmasına son qoymağı və onun yanına mülki həkimlərin buraxılmasına icazə verməyi"* tələb edib.

Hüquqşünaslar əmin olduqlarını bildirib ki, göstərişlər mövcud olarsa o, xəstəxanaya yerləşdirilməlidir. Hazırda məktub üçün imzalar toplanır. Hal-hazıra kimi onu 16 hüquq müdafiəçisi imzalayıb.

Xatırladaq ki, bundan öncə Putinin ünvanına analoji açıq məktubla həkimlər çıxış edib, bu məktub yanvarın 10-da dərc edilib.

# 36 il ömrü olan hərbi ittifaq

**Varşava Müqaviləsi Təşkilatı – beynəlxalq aləmdə bu təşkilatı qeyri-rəsmi "sovet NATO"-da adlandırıblar. Məhz 1955-ci ildə Almaniya Federativ Respublikası NATO-ya daxil olduqdan sonra SSRİ buna cavab olaraq Avropanın sosialist ölkələrinin hərbi ittifaqını yaratmağa qərar verib. Bununla da SSRİ NATO-ya alternativ hərbi ittifaq yaradıb. İttifaqa səkkiz ölkə daxil olub: SSRİ, Almaniya(ADR), Çexoslovakiya, Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, Albaniya.**



## NATO-ya qarşı yaradılan "sovet NATO"su SSRİ ilə eyni zamanda süquta uğrayıb

Təşkilatın yaradılması barədə sənəd 25 may 1955-ci ildə SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən ratifikasiya edilib və həmin ilin iyunun 4-də rəsmi olaraq qüvvəyə minib. Təşkilatın nizamnaməsi 11 maddədən ibarət olub. Nizamnamədə ittifaqın fəaliyyəti 20 il müddətinə göstərilib, 20 il təşkilatdan çıxmayan ölkələrin bu müddətdən sonra üzvlüyünün daha 10 il artırılması nəzərdə tutulub.

Nizamnamədə ittifaqın yaradılmasının məqsədi bəyan edilərək qeyd olunub ki, üzv ölkələr bir-birinin müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etməyi, bir-birlərinin daxili işlərinə qarışmamağı öz üzərinə öhdəlik kimi götürür, o cümlədən müqaviləyə qoşulan ölkələrdən hər hansı birinə hərbi hücum olacağı təqdirdə ona bütün mümkün vasitələrlə, o cümlədən hərbi qüvvə ilə dərhal yardım etmək də Varşava Müqaviləsi Təşkilatının əsas məqsədlərindən biri kimi göstərilib.

Varşava Müqaviləsi Təşkilatının rəhbər orqanları aşağıdakılar olub:

*-Siyasi Məşvərət Komitəsi.*

*-Birləşmiş Silahlı Qüvvələrin komandanlığı.*

*-İttifaqın mənzil-qərargahı Moskvada fəaliyyət göstərib.*

Fəaliyyət göstərdiyi illərdə Varşava Müqaviləsi Təşkilatının Birləşmiş Silahlı Qüvvələrinə 5 nəfər komandanlıq edib. Komandanların hamısı SSRİ Silahlı Qüvvələrinin hərbçiləri olub:

*1955-1960-cı illər, İvan Konyev - Sovet İttifaqı marşalı.*

*1960-1967-ci illər, Andrey Qreçko – Sovet İttifaqı marşalı.*

*1967-1976-cı illər, İvan Yakubovski – Sovet İttifaqı marşalı.*

*1976-1989-cu illər, Viktor Kulikov – Sovet İttifaqı marşalı.*

*1989-1991-ci illər, Pyotr Luşev – ordu generalı.*

O cümlədən Varşava Müqaviləsi Təşkilatının Birləşmiş Silahlı Qüvvələrinin baş qərargah rəisləri də SSRİ-nin ali rütbəli hərbçilərindən ibarət olub.

Varşava Müqavilə Təşkilatının yaradılması ilə SSRİ öz qoşunlarını bütün üzv ölkələrdə yerləşdirib. Bununla yanaşı SSRİ həmin ölkələri hərbi avadanlıqlar, texnika, silah və sursatla təmin edib. Eyni zamanda bu ölkələrdə müdafiə sənayesinin inkişafda SSRİ fəal iştirak edib. Məsələn, VMT-nin Birləşmiş Silahlı Qüvvələrinin döyüş hesabındakı 65-70 min tankın 80 faizi sovet istehsalının texnikası olub.

1987-ci ilin statistikasına görə VMT-nın Birləşmiş Silahlı Qüvvələrinin şəxsi heyəti 6 milyon 465 min nəfərdən ibarət olub. Şəxsi heyət, texniki təchizat, maddi tələbatların ödənilməsi əsasən SSRİ-nin üzərinə düşüb.

36 illik fəaliyyəti dövründə VMT-nin Birləşmiş Silahlı Qüvvələri bütün üzv ölkələrin ərazisində 30-dan artıq irimiqyaslı hərbi təlimlər keçirib. Keçirilən təlimlərin əhatə dairəsi o qədər geniş olub ki, bu, hətta beynəlxalq müstəvidə kifayət qədər ciddi narazılıq yaradıb. Məsələn, 1981-ci ildə keçirilən "Qərb-81" təliminə 100 mindən artıq hərbçi cəlb olunub. Hərbi ekspertlərin qənaətinə görə İkinci Dünya müharibəsində keçirilən hərbi əməliyyatlara bu sayda şəxsi heyət və hərbi texnika cəlb edilməyib. 1982-ci ildə "Qalxan-82" təlimində isə 7 saat ərzində yerüstü, hava və dənizdən 70 raket qurğusundan istifadə olunub ki, bu da təxminən mövcud dövr üçün rekord sayılıb.

Əslində, VMT-nin yaradılması heç də nizamnamədə göstərildiyi kimi qarşılıqlı yardım, sülhə xidmət, silahlanmanın ixtisarı deyil, tam başqa məqsəd daşıyıb. Bu hərbi-siyasi ittifaqı yaratmaqla SSRİ öz gücünü dünyaya nümayiş etdirmək, sosialist blokunda kommunist rejiminə qarşı çıxanları susdurmaq, hərbi yolla şərqi Avropada sosialist rejimini saxlamaq olub. Xüsusilə Leonid Brejnevin hakimiyyəti dövründə "sovet NATO"-sunun başqa ölkələrdə hərbi əməliyyatları bunu daha qabarıq şəkildə büruzə verib. "Praqa baharı" kimi tarixə düşən Çexoslovakiya hadisələri isə bir daha sübut edib ki, VTM-nin məramı heç də kağız üzərində qalan maddələrə uyğun deyil.

SSRİ-nin süqutundan sonra VMT-nin fəaliyyətinin dayanması onu sübut edib ki, bu ittifaq heç də kollektiv bir qurum yox, SSRİ-nin hegemonluğu hesabına yaranıb. Ən maraqlı məqamlardan biri isə odur ki, NATO-ya qarşı yaradılan "sovet NATO"-nun demək olar ki, bütün üzvləri Rumıniya, Bolqarıstan, Polşa, Almaniya (ADR), Çexiya və Slovakiya, Macarıstan, vaxtilə SSRİ-nin müttəfiq respublikaları olan Estoniya, Latviya, Litva sonradan NATO-ya üzv olub.

# Stalinin kabinetində iki dəfə büdrəyən sərxoş nazir

## Rəhbər onun iki arvad saxlamasına göz yumub



**Digər sovet liderlərindən fərqli olaraq İosif Stalin tabeliyində olan dövlət məmurlarına qarşı daha tələbkar və daha sərt olub. Bu da sirr deyil ki, Stalinin cəza metodları və tətbiq dairəsi də xeyli fərqlənib. Yəqin elə buna görədir ki, Stalinin hakimiyyəti illəri "böyük terror", "repressiya illəri", "böyük təmizlik" ifadələri ilə daha çox yadda qalıb...**

Amma bu amansızlıq və qəddarlıqla yanaşı, Stalin mərhəmət hisslərindən, xoş münasibət sərgiləməkdən də məhrum olmayıb. O, xüsusilə işini bəyəndiyi və dəyərləndirdiyi dövlət məmurlarına güzəştə getməyə bacarıb, hətta səhvlərini də bağışlayıb.

Belə məmurlardan biri də uzun illər SSRİ kənd təsərrüfatı naziri (qurumun adı ayrı-ayrı illərdə müxtəlif olub) vəzifəsində çalışan İvan Benediktov olub. Benediktovun müharibənin ən ağır dövründə, 1941-1942-ci illərdəki fəaliyyətini Stalin yüksək qiymətləndirib. Ordunun və əhalinin kənd təsərrüfatı məhsulları ilə təmin olunmasında, ehtiyat taxıl fondunun yaradılmasında, ölkənin ərzaq proqramının mövcud dövrə uyğun tənzimlənməsində onun xidmətləri danılmaz fakt kimi ölkə tarixinə yazılıb.

Amma sözsüz ki, Benediktovun da fəaliyyəti nöqsansız olmayıb. Nazir xüsusilə də ailə-məişət məsələləri ilə bağlı bir neçə dəfə Kremldə müzakirə mövzusuna çevrilib. Ancaq o, digər həmkarlarından fərqli olaraq Stalinin qəzəbinə yox, mərhəmətinə tuş gəlib.

Belə hadisələrdən biri də Benediktovun həyat yoldaşının ad günündə baş verib. Həmin gün nazir Moskva yaxınlığında ezamiyyətdə olub. O, işlərini görüb qurtardıqdan sonra qərara gəlib ki, axşamdan xeyli keçmiş olsa da Moskvaya qayıtsın, ad günündə həyat yoldaşı ilə birlikdə olsun. Saat 22-23 radələrində Benediktov evinə çatıb. Məclis qızışıb, gecikdiyinə görə naziri 3 dəfə araqla dolu qədəhlə *"cəzalandırıblar"*. Təxminən gecə saat 2 radələrində telefona zəng gəlib. Telefon xəttinin o başından Stalinin şəxsi katibi Poskrebışevin səsi eşidilib:

- İvan Aleksandroviç, yoldaş Stalin sizi təcili yanına çağırır. Sürücü çağırmayın, maşın göndərmişik, 5 dəqiqədən sonra o, sizi həyətdə gözləyəcək.

Təbii ki, 3-4 saat davam edən məclisdən sonra nazirin vəziyyəti birincinin kabinetinə getmək üçün arzuolunan vəziyyətdə olmayıb. Amma heç başqa çıxış yolu da tapılmayıb.

Benediktov kabinetə girəndə müvazinətini itirib və yıxılmaqdan özünü güclə saxlayıb. Bu, Stalinin diqqətindən yayınmayıb. O, nazirə oturmağa yer göstərib. Benediktov əyləşmək istəyəndə ikinci dəfə müvazinətini itirib, amma bu dəfə də bəxti gətirib, yıxılmayıb.

Stalin naziri sorğu-suala tutub, nazirliyin işləri ilə maraqlanıb, öhdəliklərin yerinə yetirilməsi ilə bağlı rəqəmləri soruşub. Benediktov bütün suallara geniş və ətraflı cavab verib. Cavablar və göstəricilər Stalini qane edib və o, söhbətə yekun vurub:

- Yoldaş Benediktov, sizin başınız ayaqlarınızdan fərqli olaraq çox yaxşı işləyir. Amma narkomlar içkiyə və əyləncəyə az vaxt sərf etsələr, daha yaxşı olar.

Nazir getmək üçün icazə istəyib. Stalin ondan bir dəqiqə gözləməyi xahiş edib. O, şkafın siyirməsini açaraq oradan götürdüyü iri şokolad qutusunu Benediktova uzadıb:

- Mənim əvəzimdən həyat yoldaşınızı təbrik edərsiniz.

Sonralar öz xatirələrində Benediktov həmin günü belə xatırlayıb: ***"Həmin gün heç vaxt yadımdan çıxmayacaq. Ona görə yox ki, mən gecə Kremlə dəvət olunmuşdum. Belə hallar tez-tez olurdu. Stalinin məni içkili vəziyyətdə görüb cəzalandırmamağı da təəccüblü deyildi. O, hər şeyi anlayan adam idi, söylənildiyi qədər də amansız deyildi. Məni təəccübləndirən o idi ki, həmin gün mənim Moskvada olduğumu heç kim bilmədiyi halda, Stalin haradan bilmişdi ki, mən evdəyəm və həyat yoldaşımın ad günüdür..."***

İvan Benediktov ikinci dəfə də ailə məsələsi ilə bağlı Stalinin mərhəməti ilə üzləşib. Nazirlər Sovetinin geniş tərkibli iclaslarının birində Stalinə məruzə ediblər ki, Benediktov sovet əxlaq normalarına zidd hərəkət edərək iki arvad saxlayır və iki bağ evi tikdirir. Nazir haqqında mənfi rəy yaratmaq ideyası Beriyaya məxsus olub. Beriya bütün vasitələrlə Benediktovu siyasi səhnədən uzaqlaşdırmağa cəhd edib. Stailin söylənilənlərə diqqətlə qulaq asdıqdan sonra məsələyə münasibət bildirib:

- Əgər kimsə iki nazirin işini görürsə, onun iki arvad saxlamağa və iki bağ evi tikməyə haqqı var. Əgər siz buna etiraz edirsinizsə, biz iki nazirliyi birləşdirib Benediktovu nazir təyin edərik, o da arvadların birini və bağ evinin ikincisini ixtisara salar. Odur ki, arvadların sayından asılı olmayaraq hər iki variantda Benediktov nazir kürsüsündə əyləşəcək.

İvan Benediktov 1902-ci ildə Kostromoda anadan olub. Timiryazev adına Kənd Təsərrüfarı Akademiyasında ali təhsil alıb. 1927-ci ildən 1930-cu ilə qədər Özbəkistanda Torpaq komissarlığında müxtəlif vəzifələrdə çalışıb. 1937-ci ildə İvan Benediktov Rusiya taxıl və heyvandarlıq təsərrüfatı komissarı, 1938-ci ildə SSRİ torpaq komissarının birinci müavini, həmin ilin noyabrında isə komissar (nazir) təyin edilib.

İvan Benediktov Kənd Təsərrüfatı Nazirliyində ən uzunömürlü rəhbər olub. O, ayrı-ayrı iki müddətdə 15 il bu vəzifəni daşıyıb.

Stalinin vəfatından sonra Beriyanın təzyiqi ilə Benediktov nazir vəzifəsindən uzaqlaşdırılaraq Hindistana səfir göndərilib. Bir neçə aydan sonra Beriya həbs olunduqda Nikita Xruşov onu yenidən Moskvaya çağırıb, əvvəlki vəzifəsinə qaytarıb.

Xruşovun hakimiyyəti illərində Benediktov aparılan islahatlarla razılaşmayıb və Xruşovla aralarında fikir ayrılığı yaranıb.

Beləliklə də Benediktov yenidən 1959-cu ildə Hindistana göndərilib və bu ölkədə 1967-ci ilə qədər səfir işləyib.

Stalinin qızı Svetlana Alliluevanın Hindistanda Amerika səfirliyinə getməsi və sığınacaq istəməsi hadisəsi məhz Benediktovun bu ölkədə səfir işlədiyi ərəfəyə təsadüf edib. Bu məsələdə Benediktovun da yardımı olduğu müəyyənləşib və onu vəzifəsindən azad edərək bu dəfə Yuqoslaviyaya səfir təyin ediblər.

1971-ci ildə Benediktov Yuqoslaviyadan Moskvaya qayıdıb və təqaüdə çıxıb.

Benediktov ömrünün son illərini memuarlar yazmağa həsr edib. Ö, öz xatirələrində Stalinin vətən qarşısındakı xidmətlərinə böyük dəyər verib. Nikita Xruşovun hakimiyyət illərini isə SSRİ-ni uçuruma aparan illər kimi qiymətləndirib.

İvan Benediktov 1983-cü ildə, 81 yaşında vəfat edib. O, Moskvada, Novodeviçye qəbiristanlığında dəfn olunub.

Təqdim edən: İlham Cəmiloğlu

# Paralel

**Son səhifə**

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 049 (3617) 19 yanvar 2023-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


# Turşular: bankanın qapağı şişibsə, dibində ağ çöküntü varsa

**Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən hər il dünyada 600 milyon nəfər qida zəhərlənməsinə məruz qalır. Buna səbəb müxtəlif növ bakteriya, virus, parazit və yaxud kimyəvi maddələrlə çirklənmiş qida məhsullarının istehlakıdır. Xüsusilə turşu bağlayarkən gigiyena qaydalarına əməl edilməməsi və müxtəlif kimyəvi preparatlardan istifadə zəhərlənmələrə aparıb çıxarır.**



Qida mütəxəssisi Məhsəti Hüseynovanın dediyinə görə, turşu qoyarkən yalnız mövsümü meyvə və tərəvəzlərdən istifadə etmək lazımdır: *“Mövsümü olmayan və yaxud yetişdirilməsində müəyyən kimyəvi dərmanlardan istifadə edilən tərəvəzlərdən turşu qoyulursa, təbii ki, müəyyən vaxtdan sonra onların arasında reaksiya gedir və zəhərlənməyə aparıb çıxarır. Bəzən hər hansı xarab olmuş meyvə və ya tərəvəzin turşuya qoyulması digərlərini də xarab edir və bu da zəhərlənmə ilə nəticələnər. Xanımların turşu qoyarkən kor-koranə şəkildə aspirin, sitramon və s. kimi dərmanlardan istifadə etməsi həmin qida məhsulunun tərkibini dəyişir və zəhərlənməyə səbəb olur. Bəzən isə turşuya əlavə edilən sirkənin miqdarını aşırı dərəcədə edirlər. Bu isə onunla qidalanan hər kəsdə fərqli reaksiya verə bilər”.*

Turşu hazırlanıldıqdan sonra Günəş şüalarından uzaq olan normal otaq temperaturunda saxlanılmalıdır. Onu qəbul etməzdən əvvəl həm rənginə, dadına, həm də görünüşünə diqqət yetirmək lazımdır. *“Turşu qoymaq üçün mütləq şüşə qablardan istifadə edilməlidir. Onları bağlayan qapaqlara xüsusilə diqqət yetirilməlidir. Həmin qapaqlar təzə, birdəfəlik istifadə üçün nəzərdə tutulmalıdır. Hazırlanmış turşular sərin və qaranlıq yerdə saxlanılmalı, mütəmadi olaraq yoxlanılmalıdır. Əgər qapaq şişibsə və ya turşu məhsulunun suyu bulanıqdırsa, dibində ağ çöküntü varsa, bunlar zəhərlənməyə səbəb olan əsas əlamətlərdən hesab olunur”*,- deyə mütəxəssis bildirib.

Qida zəhərlənməsi 12-48 saat ərzində özünü büruzə verir. Zəhərlənmənin ilkin əlamətləri ürəkbulanma, qusma və ishaldır. Bu halda vaxt itirmədən həkimə müraciət etmək lazımdır.

# Yağlı qidaların zərəri

Düzgün qidalanmaq, orqanizmə zərər verən məhsullardan uzaq olmaq sağlamlığın əsas şərtlərindən biri sayılır. Qəbul edilən qidaların tərkibi nə çox yağlı, nə də çox duzlu olmalıdır? Mütəxəssislər bildirirlər ki, yeməyə aşırı dərəcədə yağ əlavə etmək düzgün deyil, çünki onların reaksiyası nəticəsində orqanizmdə ağır maddələr əmələ gəlməsi həyat üçün təhlükəli hesab olunur.

Həkim-diyetoloq Məlahət Kərimova deyib: *“Yüksək dərəcədə isidilmiş yağların üzərinə ət məhsulları atılması onun tərkibindəki zülalların yandırılaraq bişirilməsinə səbəb olur və bu zaman yağ ətin tərkibinə keçir. Həmin yeməklə qidalanma zamanı qaraciyərdə piylənmə əmələ gəlir. Aparılan bir çox araşdırmalar göstərir ki, piylənməyin əsas səbəblərindən biri bişirilmə texnologiyasının düzgün şəkildə aparılmamasıdır. Qaraciyər piylənməsi beyin funksiyalarının pozulmasına, həmin nahiyədə oksigen tarazlaşmasının azalmasına və beyin toxumalarının iltihablanmasına səbəb olur”.*

Yağlı yeməklərdən əlavə yağda qızardılmış qidalar da



sağlamlıq üçün təhlükə mənbəyi hesab olunur. Hətta bəzən həmin yağlardan bir neçə dəfə istifadə edirlər.

Qida üzrə mütəxəssis Seymur Qafarov bildirir ki, bitki yağlarının təkrar istifadəsi qaraciyər xərçənginə səbəb ola bilər: *“55 faiz kalori dəyərindən yüksək qidalar qaraciyərin ən əsas düşmənidir. Həmin qidaların qəbulu zamanı qaraciyərin ətrafı piy qatı ilə örtülür, onun funksiyalarını tam yerinə yetirməsinə, digər orqanlarla əlaqələrin pozulmasına və qarın boşluğu daxilində fəaliyyətinə əks təsir göstərir. Bununla yanaşı, dalaq və həzm sisteminin bağırsaqlarla əlaqəsini pozur”.*

Mütəxəssislər yeməkdən dərhal sonra meyvə qəbul etməyi də məsləhət görmürlər. Qidanın asan və rahat həzmi üçün yeməkdən yarım saat sonra bitki çayı içilməsi tövsiyə olunur.



## Tibbi bankalardan dəstəkləyici vasitə kimi istifadə etmək olar

Köhnə müalicə üsulu olan bankalanmaq kiçik bankalarla dərinin təbəqələri arasında yığılan və qaraciyərdə toplanan toksinləri vakuumlayaraq alma üsuludur. Qaraciyər bədənin detoks orqanı kimi toksinlərlə mübarizə aparır, onları yox edir. Banka vasitəsilə həmin toksinlər vakuumlanaraq sorulur.

Tibbi bankalardan illərdən bəri istifadə olunur. Lakin bəzən həmin üsuldan həkim məsləhəti olmadan istifadə edilir. Ona görə də bir sıra yanlışlıqlara yol verilir.

Həkim-terapevt Zakir Quliyev deyib: ***“Bankadan istifadə olunmasına müalicə üsulu kimi yanaşmaq düzgün deyil. Lakin ondan dəstəkləyici bir vasitə kimi istifadə etmək olar. Xəstənin qanaxma, laxtalanma və qan damarlarında problem varsa, bankalanmadan maksimum dərəcədə uzaq olmaq lazımdır”.***

Banka qoymağın müəyyən müsbət təsiri barədə danışan həkim-terapevt bildirib: ***“Banka qoyulan yerdə qan dövranı sürətlənir, toksinlərin xaric olması baş verir. Lakin onun harada və necə qoyulduğunu da bilmək vacibdir”.***

Mütəxəssislərin dediyinə görə, bankalanma bu sahədə məlumatı olanlar tərəfindən aparılmalıdır. Yan təsirləri nəzərə alaraq diqqətli olmaq, toksinlər sorularaq çıxarılanda xəstənin immuniteti də zəifləyə bilər. Ona görə də bankalanmaq istəyənlərin həmin məqamları nəzərə almağı tövsiyə olunur.



## Kəklikotu çayı infeksiya mövsümündə faydalıdır

Kəklikotu çayının qəbulu həyat eşqini artırır. Həmçinin açıq antibakterial təsir göstərir.

Kəklikotu çayı bədənin iltihabla mübarizə aparmasına kömək edir, eləcə də qaraciyər və bağırsaqların fəaliyyətini yaxşılaşdırır. Çayın digər üstünlüyü psixo-emosional vəziyyətə müsbət təsir göstərmək qabiliyyətidir. Stres və gərginliklə mübarizə aparmağa kömək edir.

Kəklikotu qara və yaşıl çay ilə uyğunlaşa bilər və həmçinin nanə, qaraqat, moruq, çobanyastığı, itburnu kimi digər bitkilərlə qarışıq tərkibdə dəmlənə bilər. Bu cür cövhərlər düzgün dozalarda dəmlənməlidir.


*Təsisçi:*
**Tapdıq Abbas**

*Baş redaktor:*
**Akif Nəsirli**

*Birinci müavin:*
**Şahnaz Salehqızı**

*İnformasiya şöbəsinin müdiri:*
**Röyal Əsədli**

*Bölgə müxbirləri:*
**Vaqif Cəmiloğlu**
**Sadıq Sadıqlı**
**İqbal Məmmədov**
**Əlizadə Nəhmədağaoğlu**
**İlkin Əsədzadə**

*Qəzet 16 fevral 2003-cü ildən çıxır.*
Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə
“Azərbaycan” nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
*Qəzet “Son Dakika” MMC-nin mətbəəsində çap olunub.*
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**